Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

25 DEKABR 2019-cu il

№ 230 (4128)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QARABAĞ MƏSƏLƏSİNDƏ QƏTİ DÖNÜŞ OLMAYAN İL - İKİ TUTARLI SƏBƏBLƏ BÜTÜN MƏSULİYYƏT ERMƏNİSTANIN ÜSTÜNƏ QOYULDU...

■ səh. 8 ■

Prezident İlham Əliyev "ASAN"dan sonra "DOST" xidmətlərinin də ixrac olunacağını bildirdi

■ səh. 2 ■

Rayon camaatı ilə açıq söhbətlər, birbaşa sakinlərdən ərizə götürmək, icra başçıları ilə efirdə açıq söhbət və televiziyalara müsahibə - Prezidentin son ildəki yeni iş üsulları...

■ səh. 3 ■

Abadlıq adı ilə sahibkarlardan pul yığan icra başçıları da əməllərini Prezidentdən gizlədə bilmədi

■ səh. 3 ■

"Bakı-Xəbər"in şərhi Misir səfirliyini hərəkətə gətirdi - separatçı Qarabağın bir oyununu da pozduq...

■ səh. 4 ■

Azərbaycanın yeni silahları Ermənistanı indidən lərzəyə gətirir

■ səh. 9 ■

Paşinyanın da sonu çatdı...

■ səh. 11 ■

Sifarişli taksi xidmətlərində qiymət qoymanın anlaşılmaz prinsipləri - eyni məsafəyə hər şirkət bir qiymətə aparır...

■ səh. 13 ■



■ səh. 5 ■

## Azərbaycan Prezidenti Avropanın istəyinə inamla qarşı gedir - «nefti-qazı öz xalqıma dünya qiymətləri ilə satmayacağam»...





Prezident deputat üçün daha bir kriteriya müəyyənləşdirdi - hazırkı deputatların hansı hissəsi buna uyğun işləyib...

■ səh. 5 ■

«Biz qürurlu ölkəyik, öz yolumuzla gedirik» - Bu mübariz prinsip dünyada Azərbaycanı hara gətirib çıxarıb...

■ səh. 4 ■

Azərbaycanın mənzil tikinti bazarında qiymət inhisarçılarına tutarlı zərbə - dövlətin müdaxilə layihəsi...

■ səh. 12 ■

■ səh. 6 ■

İcraçı məmurlarımız da Prezident kimi fasiləsiz işləyə bilirmi...



■ səh. 10 ■

İkinci Cümhuriyyətin qurucuları komandası - Elçibəyin və Heydər Əliyevin komandasında "mübahisəsiz cümhuriyyət qurucuları" varmı...



■ səh. 6 ■

Hansı növ icra başçısı daha çox olar - yerdəki problemi bilməyənlər, ya problemləri gizlətmək istəyənlər...



■ səh. 7 ■

Bələdiyyə namizədlərinin yalnız üçdə biri partiya üzvləridir - cəmiyyət partiyalara, ya partiyalar bələdiyyələrə çox etimad edir...



■ səh. 14 ■

Yeni ildən əmlakın məcburi sığortasından narazılıq(?) - bu ki, vətəndaşın özünə sərfəlidir...



## Dünya liderlərindən İlham Əliyevə ad günü təbrikləri davam edir

**Dekabrın 24-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Serbiya Prezidenti Aleksandr Vuçiç Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək təbrik edib və uğurlar arzulayıblar.**

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev də dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək təbrik edənlər arasında olub.

Gürcüstan Prezidenti Salome Zurabişvili, Qazaxıstan Respublikasının birinci Prezidenti-Elbası Nursultan Nazarbayev, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Counz isə Prezident İlham Əliyevə məktub göndərərək onu ad günü münasibətilə təbrik ediblər.

## Qarabağ əlillərinə avtomobil və mənzillər hədiyyə edildi

**Prezident İlham Əliyev Qarabağ müharibəsi əlillərinə, onlara bərabər tutulan şəxslərə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edib.**

Dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunmuş yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimi keçirilib.

## Prezident İlham Əliyev Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib

**Prezident İlham Əliyev dekabrın 24-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib.**

Baki-xeber.com-un xəbərinə görə, Bilal Ərdoğan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından və öz adından dövlət başçısını ad günü münasibətilə təbrik edib, ona Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Təbrikə və göstərilən diqqətə görə təşəkkürünü bildirən Prezident Əliyev bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışdığını məmnunluqla qeyd edib.

## İranın Azərbaycandakı səfiri Mətbuat Şurasında olub

**İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə Azərbaycan Mətbuat Şurasında olub.**



Qonağı salamlayan MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, İran və Azərbaycan xalqları arasındakı tarixi dostluq və mehriban qonşuluq münasibətləri hər iki ölkənin müasir əməkdaşlığında başlıca halqanı təşkil etməkdədir. Sevindirici haldır ki, İranın və Azərbaycanın media qurumları da fəaliyyətlərini bu ənənəyə sadiqlik ruhunda qurmaqdadır. İranın Azərbaycandakı Səfirliyinin son illər hər iki ölkənin kütləvi informasiya vasitələri arasındakı təmasın möhkəmləndirilməsinə yönələn təşəbbüslərinin geniş təqdir olunduğunu vurğulayan MŞ sədri əlavə edib ki, başlanmış yolun davamı vacibdir və rəhbərlik etdiyi təşkilat mövcud istiqamətdəki işbirliyinin perspektivlərinə ümidlidir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, yeni əməkdaşlıq prioritetləri nəzərdən keçirilib. Bu baxımdan İranın Mədəniyyət və İslam İrşadı Nazirliyinin Mətbuat və İnformasiya Departamenti ilə Azərbaycan Mətbuat Şurası arasında imzalanmış əməkdaşlıq memorandumunun əhəmiyyəti önə çəkilib. Həmin sənədə əsasən, İran və Azərbaycanın media təmsilçilərinin qarşılıqlı səfərlərinin reallaşdırılması ətrafında fikir mübadiləsi aparılıb. Səfir C.Cahangirzadə, həmçinin, son aylar Prezident İlham Əliyev tərəfindən aparılan islahatların Azərbaycanın daha da inkişafı baxımından münbit zəmin yaratdığını dilə gətirib.

# Prezident İlham Əliyev "ASAN"dan sonra "DOST" xidmətlərinin də ixrac olunacağını bildirdi

**Dekabrın 24-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılışı olub.**




Prezident İlham Əliyev açılış mərasimində iştirak edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Prezident İlham Əliyev DOST mərkəzinin bir qrup işçisi və "Gənc DOST" könüllüləri ilə görüşüb və çıxışında deyib:

- Bu gün DOST mərkəzinin ikinci binası istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. DOST mərkəzlərinin yaradılması çox gözəl, əlamətdar hadisədir. Bu mərkəzlər sosial təminat sahəsində çox böyük dönüş yaradıbdır, innovasiyaların və müasir xidmətlərin göstərilməsi üçün çox gözəl alət olubdur. Şadam ki, DOST mərkəzlərinin yaradılması artıq geniş vüsət alır və bu, il ərzində açılan ikinci mərkəzdir. Gələn il də Bakıda və rayonlarda bir neçə mərkəzin açılışı nəzərdə tutulur. Beləliklə, gələn il DOST mərkəzlərinin əhatə dairəsi genişlənəcək və əhalimizin yarıdan çox hissəsini əhatə edəcək.

DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir. Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də "ASAN xidmət" mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi "ASAN xidmət" öz intellektual məhsulunu ixrac edir, artıq bir neçə ölkədə bu layihələr icra olunur. Ümid edirəm ki, gələcəkdə DOST xidmətinin də fəaliyyəti başqa ölkələrdə maraq doğuracaq və təcrübə mübadiləsi üçün bizə müraciətlər daxil olacaq.

Digər önəmli məsələ ondan ibarətdir ki, bir binada 130-dan çox xidmət göstərilir. Əminəm ki, buraya müraciət edən və edəcək bütün vətəndaşlar bu xidmətdən razı qalacaqlar. Birinci mərkəzin açılışından sonra DOST mərkəzinə cəmi 6 ay ərzində 60 mindən çox müraciət olmuşdur və vətəndaşların məmnunluq əmsalı çox yüksəkdir. Bu, onu göstərir ki, həm bütün proses çox düzgün təşkil edilib və həm də bu mərkəzlər məhz innovativ əsaslarla fəaliyyət göstərir. Digər tərəfdən, birinci DOST mərkəzində çalışan işçilər və könüllülər vətəndaşlara çox gözəl xidmət göstərirlər. Bu da məni çox sevindirir. Çünki biz ictimai xidmətlər sahəsində yeni davranış qaydaları tətbiq edirik və xidmət mədənidir, çox dəqiqdir. Əminəm ki, DOST mərkəzinə müraciət edən hər bir şəxs buradan razı qayıdır.

Şadam ki, burada işləyənlərin mütləq əksəriyyəti, demək olar ki, hamısı gənclərdir. Bu, Azərbaycan gənclərinin fədakarlığını və öz işinə bağlı olduğunu, məsuliyyətlə yanaşdığını göstərir. Eyni zamanda, bu, gənclər üçün də çox gözəl hazırlıq mərhələsidir. Çünki siz gəncsiniz, müstəqil həyata yenicə qədəm qoymağa başlayırsınız və çox gözəl haldır ki, sizin işiniz buradan başlayır. Əminəm ki, burada qazanacağınız təcrübə gələcəkdə sizə kömək edəcək.

# Ceyhun Bayramov məktəb müəllimlərinin əməkhaqqı barədə maraqlı fakt açıqladı

**Son illərdə əldə edilən ən böyük nailiyyət müəllim nüfuzunun artırılması olub. Müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edən namizədlərin sayı 3 dəfədən çox artıb.**

"Trend"in məlumatına görə, bunu Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçirilən "Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər" mövzusunda konfransda Təhsil naziri Ceyhun Bayramov deyib.

Nazirin sözlərinə görə, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan təhsil strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Ölkəmizdə həyata keçirilən islahatlar təhsil sahəsinə müsbət təsir göstərib, ümumtəhsil müəssisələrində təhsil göstəriciləri ilə bağlı nailiyyətlər əldə edilib. Məktəb tikintisi ahəsində aparılan işlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılıb, ikinci növbədə oxuyan şagirdlərin göstəricisi 35 faizdən 14 faizə enib".



C.Bayramov qeyd edib ki, müəllimlərin əməkhaqqının son artımından sonra aylıq əməkhaqqı min manatdan çox olan müəllimlərin sayı 5000 nəfərə çatıb.

Onun sözlərinə görə, aparılan işlər nəticəsində artıq ucqar kəndlərdə 5 yaşlı uşaqlar məktəbəqədər təhsilə cəlb olunub. Növbəti ildə ölkə üzrə məktəbəqədər təhsilə cəlb olunan 5 yaşlı uşaqların göstəricisinin 90 faizə çatdırılması nəzərdə tutulur.

Nazir deyib ki, ali təhsilin əlçatanlığının artırılması sahəsində Prezident İlham Əliyev tərəfindən əhəmiyyətli qərarlar qəbul edilib: "2019-cu ildə akademik göstəricilərə çox ciddi təsir edən amil olan, 110 min nəfər tələbəni əhatə edən təqaüd məbləğləri orta hesabla 20 faiz artırılıb. Dövlət başçısı tərəfindən təqaüd yerlərinin 16 min vahid artırılması barədə verilən sərəncamda növbəti müddətlər üçün konkret hədəflər qoyulub. Belə ki, 2019-2020-ci akademik ilində ali təhsil sistemində ən azı 45 faiz, növbəti illərdə isə ən azı 50 faizdən az olmayan tələbənin təqaüd alması təsbit edilib".

C.Bayramov müəyyən kateqoriyalı, sosial cəhətdən qayğıya, dəstəyə ehtiyacı olan insanların akademik göstəricilərindən asılı olmayaraq dövlət vəsaiti hesabına təhsil almaq hüququna malik olduğunu vurğulayıb.

Təhsil naziri qeyd edib ki, ölkədə elmi tədqiqatların effektivliyi xeyli yüksəlib. Onun bildirdiyinə görə, şagirdlər arasında ixtiracılığın inkişafı əsas məqsədlərdəndir.

# Rayon camaatı ilə açıq söhbətlər, birbaşa sakinlərdən ərizə götürmək, icra başçıları ilə efirdə açıq söhbət və televiziyalara müsahibə - Prezidentin son ildəki yeni iş üsulları...

**Ölkə başçısı həqiqətən inqilabi yeniliklər edir. Bəlkə də bir neçə il əvvəl İlham Əliyevin təkbaşına belə islahatlara başlayacağına kimlərsə dərindən inana bilməzdi. Ona görə yox ki, İlham Əliyevdə belə addımları sona çatdırmaq üçün gücə kimsə şübhə ilə yanaşardı. Sadəcə, birdən-birə paralel olaraq bu səviyyədə addımların atılması, islahatların miqyası bir qədər qəribə görünə bilərdi.**

İlham Əliyev ölkədə yeniliklərin olacağının ilkin anonsunu özünün son inauqurasiya nitqində bəyan etmişdi. Prezidentin həyata keçirdiyi islahatların həcmi baxımından 2019-cu il olduqca məhsuldar oldu. İlin birinci yarısında bir sıra struktur və kadr islahatları aparıldı, paralel olaraq əhalinin böyük bir hissəsinə sosial paket təqdim edildi. İlin ikinci yarısında həmin yöndə addımlar davam etdirildi. Ən başlıcası isə İlham Əliyev öz komandasını köklü şəkildə yeniləmək, daha dəqiq ifadə etsək, cavanlaşdırmaq qərarını verdi. Ölkənin idarəetmə aparatının çox mühüm həlqələrinə bu qərar tətbiq edildi. Ölkə başçısının atdığı bəzi addımlardan hiss olunur ki, onlar heç də protokolda öz əksini tapmır. Bununla ölkə başçısı həm də öz komandasına, məmurlara ictimai nəzarəti təmin etmiş olur. Təsadüfi deyil ki, ölkə başçısı daim ictimai nəzarətin zəifliyindən narahatlıq ifadə edir, onun gücləndirilməsinin zəruriliyindən danışır. Hətta dəfələrlə bildirib ki, bir çox məlumatları o, mediadan alır. Çünki məmurlar adətən raport tipli məruzələr edirlər və orada da hər şeyin yolunda, normal olduğunu qeyd edirlər.

Gəlin bu il ərzində İlham Əliyevin öz addımları ilə bəzən protokoldan da kənara çıxaraq ictimai nəzarət mexanizmlərini necə tətbiq etdiyinə diqqət edək. Ölkə başçısı rayonlara səfər edərkən əhali ilə birbaşa təmasa keçir. Bir çox hallarda bunu gözlənilmədən, əvvəlcədən planlaşdırılmayan yerlərdə edir. Bundan başqa, Prezident və onu müşayiət edən xanımı əhalidən əlbəəl məktublar alırlar.



Bunun da əhalinin problemlərinin həllinə çox böyük faydası olub. Ölkə başçısının tətbiq etdiyi yeni formatlardan biri də vəzifəyə yeni təyin etdiyi icra başçıları və digər yüksək çinli məmurları təkbətək qəbul edib, onlara verilən tövsiyələri televiziyada nümayiş etdirməsi ilə bağlıdır. Bunun özü də həmin məmurlarda ictimai məsuliyyət hissini artırmış olur. Çünki bütün ölkənin gözü qarşısında Prezident onlara tapşırır ki, rüşvət almayın, xalqın xidmətçisi olun və s. Təbiidir ki, bu tövsiyələrə əməl etməyən məmurlarla bağlı tam əminlik yaranır ki, həmin şəxs Prezidentin etimadını doğrultmur. Nəhayət, ölkə başçısının atdığı ən mütərəqqi addımlardan birinə isə biz dekabrın 23-də şahidlik etdik. İlham Əliyev 4 yerli telekanala müsahibə verdi. Yəqin ki, ölkə başçısı bu formatda media ilə görüşlərini davamlı edəcək. Bütün bu addımlar sübut edir ki, ən böyük inqilabçı elə cənab Prezidentin özüdür və o bu yolda çəkinmədən, inamla irəli gedir!

*Məhəmmədəli QƏRİBLİ*

# Abadlıq adı ilə sahibkarlardan pul yığan icra başçıları da əməllərini Prezidentdən gizlədə bilmədi

**Azərbaycanda həyata keçirilən iqtisadi strategiyanın prioritet istiqamətlərindən biri də ölkədə sahibkarlığın inkişafıdır. Bu gün dövlət başçısının "ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq sahibkarlığın inkişafına xüsusi diqqət göstərilir, sistemli və kompleks tədbirlər həyata keçirilir.**



***İlqar Hüseynli:*** *"Rayonlarda abadlığın aparılması üçün dövlət tərəfindən vəsait ayrıldığı təqdirdə icra başçısının sahibkardan əlavə pul tələb etməsi qanunsuzdur"*

Ancaq buna baxmayaraq, bəzi məmurlar sahibkarlara dəstək olmaq əvəzinə, onlara çətinlik yaradırlar. Müxtəlif bəhanələrlə sahibkarlardan pul alırlar. Hətta bu məsələyə Prezident İlham Əliyev də toxunub.

Prezident İlham Əliyev yerli TV-lərə müsahibəsində bildirib ki, rayon və şəhər icra başçıları müxtəlif bəhanələrlə sahibkarlardan qanunsuz pul tələb edirlər. Onun sözlərinə görə, bəzi icra başçıları abadlıq işləri adı ilə sahibkarlardan pul toplayırlar, dövlət başçısı bunu qətiyyən qəbuledilməz hal sayıb: "Belə abadlıq bizə lazım deyil, rüşvət almamalıdırlar. Əksinə, çalışmalıdırlar ki, investorları cəlb etsinlər. Yoxsa, bəzi hallarda, kimsə gəlib nəsə iş görmək istəyir, ondan pul tələb edirlər. Son vaxtların tədbirləri bunu göstərdi".

İcra başçılarının abadlıq adı ilə sahibkarlardan qanunsuz olaraq pul tələb etməsinə münasibət bildirən sosial sahə üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu halla üzləşən sahibkarların sayı az deyil: "Rayon icra hakimiyyəti başçılarının abadlıq adı ilə sahibkarlardan pul vəsaiti toplaması halı yaşanıb və yaşanır. Əsasən yeni təyinat alan icra başçıları öz zövqlərinə uyğun təmir işləri həyata keçirirdilər. Yolların təmiri, üzlənməsi, şəhər daxilində müxtəlif formatlı mağazaların açılması kimi faktlar, demək olar ki, hər bir rayonda qeydə alınıb. Bu kimi işlərin görülməsi üçün icra başçıları vaxtaşırı kiçik və orta sahibkarlardan müxtəlif məbləğdə vəsait alırdılar. Bu, qanun pozuntusudur və qarşısı alınmalıdır. 15-20 iş təcrübəsi olan icra başçılarının, demək olar ki, hamısı eyni ssenari üzrə korrupsiya hallarını həyata keçiriblər. Bütün rayonlarda icra başçılarının mülkləri, biznesləri haqqında geniş informasiya əldə etmək elə də çətin deyil".

*"Yeni təyinat alan icra başçıları öz zövqlərinə uyğun təmir işləri həyata keçirmək üçün..."*

Həmsöhbətimizin sözlərinə görə, sahibkarlığın inkişafına dövlət tərəfindən xüsusi həssaslıqla yanaşılır. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün dövlət tərəfindən hər bir şərait yaradılır.

**Lakin bəzi məmurlar və icra başçıları sahibkarlığın inkişafına şərait yaratmaq əvəzinə, onlara müəyyən çətinlik yaradırlar: "Prezident çıxışı zamanı düz buyurur ki, bəzi icra başçıları abadlıq adı ilə sahibkarlardan müəyyən məbləğdə vəsait toplayırlar.**

**Axı həmin rayonda abadlığın aparılması üçün dövlət tərəfindən vəsait ayrıldığı təqdirdə icra başçısı niyə sahibkardan əlavə pul alır? İcra başçıları qanunsuz olaraq sahibkarlardan əlavə vəsait toplayırlar. Həmin icra başçıları araşdırılıb, onlar haqqında sərt tədbirlər görülməlidir".**

*Günel CƏLİLOVA*

# "Biz qürurlu ölkəyik, öz yolumuzla gedirik" - Bu mübariz prinsip dünyada Azərbaycanı hara gətirib çıxarıb...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində bildirib ki, biz qürurlu ölkəyik, biz öz yolumuzla gedirik, heç kimə də bizim ehtiyacımız yoxdur, heç kimdən də asılı deyilik: "Mən hesab edirəm ki, biz artıq Avrointeqrasiya istiqamətində öz addımlarımızı atmışıq və gələcək addımlara həm ehtiyac yoxdur, həm də o addımlar nəticəsiz olacaq".**



## *Qabil Hüseynli: "Ermənistan kimi vassal ölkəyə çevrilməyə məhz dik duruşumuz və qürurumuz imkan vermir"*

Prezident bildirib ki, indi Avropada miqrantlarla bağlı vəziyyət göz önündədir: "Bunu bəziləri demək istəmir, amma mən hesab edirəm ki, biz deməliyik. Niyə biz bu həqiqəti deməməliyik, niyə bunun üstündən keçməliyik? "Stop İslam", "İslam miqrantlara yox" şüarları ilə artıq siyasi qüvvələr hakimiyyətə gəlir. Populist vədlər indi islamofob prinsiplər əsasında qurulur. Ona görə daha çox səs toplamaq istəyən siyasi qüvvə mütləq bu mövzunu istismar edir. Belə olan halda, müsəlman ölkəsi Azərbaycan hansı formada orada təmsil oluna bilər? İkinci dərəcəli ölkə kimi? Yaxud da ki, hansısa bir imtiyaz diləyən ölkə kimi? Qətiyyən yox! Biz qürurlu ölkəyik, biz öz yolumuzla gedirik, heç kimə də bizim ehtiyacımız yoxdur, heç kimdən də asılı deyilik! Ona görə Bakı Dövlət Universitetində Avropa inteqrasiyası ilə bağlı dediyim fikirləri bu gün mən daha geniş formada ictimaiyyətə çatdırıram, hesab edirəm ki, yeganə düzgün yoldur. Biz indi Avropa qurumlarının bəzilərinin üzvüyük, mən bunu qeyd etdim. Avropa İttifaqı ilə əməkdaşlıq zəminində əlaqələr qururuq və gələcəkdə də həm ikitərəfli formatda, həm Avropa İttifaqı ilə bu əsaslar üzərində öz işimizi qurmalıyıq".

Prezidentin elan etdiyi "Biz qürurlu ölkəyik, biz öz yolumuzla gedirik, heç kimə də bizim ehtiyacımız yoxdur, heç kimdən də asılı deyilik!" prinsipi ilə hərəkət ölkəmizin beynəlxalq arenadakı yerinə, nüfuzuna nə kimi təsir göstərib?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısı müsahibəsində çox açıq mesajlar verdi: "Adətən ölkə başçıları bu cür detalları bir qədər pərdələyərək danışırlar. Ancaq İlham Əliyev hamının başa düşə bildiyi dildə danışıb, mövqeyini ortaya qoydu. Avropaya inteqrasiya Azərbaycanın balanslı siyasətinin tərkib komponenti olub. Hələ mərhum Heydər Əliyevin zamanından bu belə idi. İnsafən deyək ki, ölkəmiz bu yöndə ciddi addımlar da atıb. Ancaq biz görürük ki, Avropa qurumları bizim ora tam inteqrasiyamız üçün ciddi tələblər qoyurlar. Məsələn, Ümumdünya Ticarət Təşkilatına üzvlük. Azərbaycan hələ ki, özünü həmin quruma üzv olmağa hazır saymır. Bunun da başlıca səbəbləri vətəndaşlarımızın güzəranını düşünmək, daxili bazarı qorumaqla bağlıdır. Avropanın başqa bir tələbi isə budur ki, biz təbii qazı daxili bazarda neçəyə satırıqsa, onlara da həmin qiymətə sataq. Bu, mümkün olan məsələ deyil. Eləcə də ölkə başçısı bundan əvvəlki çıxışlarında da bildirdi ki, bizim mental dəyərlərimizə, milli-mənəvi bağlarımıza müəyyən müdaxilələrə cəhdlər edilir. Azərbaycan kiçik ölkə olsa da, bu məsələdə öz konkret mövqeyini ortaya qoyur. Bunu etməyi bacarmağın kökündə məhz kimdənsə asılılığımızın olmaması dayanır. Məhz malik olduğumuz iqtisadi və siyasi gücümüz bizi digərlərinin yanında qürurlu davranmağa sövq edir. Belə göstərici ölkəmizin nüfuzunu artırır. Bizi beynəlxalq münasibətlər sistemində vacib aktora çevirmiş olur. Ancaq bunu doğru qəbul etməliyik. Heç də o anlama gəlməməlidir ki, Azərbaycan Avropa ilə əlaqələri tam kəsir. Elə deyil. Biz öz maraqlarımızın imkan verdiyi yerə kimi əməkdaşlığımızı edirik. Hesab edirəm ki, belə prinsipial mövqeyimiz həm də bizim gücümüzün, siyasi iradəmizin göstəricisidir. Ermənistan kimi vassal ölkəyə çevrilməyə məhz dik duruşumuz və qürurumuz imkan vermir".

***Məhəmmədəli QƏRİBLİ***

# "Bakı-Xəbər"in şərhi Misir səfirliyini hərəkətə gətirdi - separatçı Qarabağın bir oyununu da pozduq...

**Bu günlərdə Dağlıq Qarabağdakı qondarma separatçı rejimin "xarici işlər naziri" Masis Mailyanın dekabrın 16-18-də Misir Ərəb Respublikasında işgüzar səfərdə olması ilə bağlı məlumat yayıldı. Erməni mətbuatı iddia edirdi ki, M.Mailyan Misirdə bir sıra işgüzar dairələrin nümayəndələri, qubernatorlarla görüşüb.**



Səfər zamanı separatçı rejim təmsilçisini Misirin Cənubi Sinay vilayətinin qubernatoru, Şarm-əş-Şeyx şəhərinin meri Xalid Fudə Məhəmməd də qəbul edib. M.Mailyan Misir hakimiyyətinin erməni icmasına ənənəvi dostluq münasibətini yüksək qiymətləndirib, ölkənin inkişafında ermənilərin mühüm töhfəsini və rolunu qeyd edib. Görüş zamanı separatçı rejimin təmsilçisi Mailyan qondarma "DQR"in iqtisadi inkişafının prioritet sahələrini təqdim edib. Bu çərçivədə Mailyan xüsusilə turizm sektorunu diqqətə çatdıraraq, Qarabağın turistik cəlbediciliyinin artırılmasına yönəldilmiş və olduqca qənaətbəxş nəticələr verən müxtəlif təşəbbüslərə toxunub. Separatçı rejim nümayəndəsi rejimin nəzarət etdiyi Azərbaycan ərazisində "vergi siyasətini və böyük investorlara güzəştli şərtləri təqdim edib". Görüşün sonunda Misirin Cənubi Sinay vilayəti ilə separatçı erməni rejimi arasında turizm, mədəniyyət və idman sahələrində əməkdaşlığın qurulması və inkişafı barədə razılıqlar əldə edilib.

Erməni mətbuatında bu barədə yazılanlar məhz "Bakı-Xəbər" qəzeti tərəfindən ictimailəşdirildi. Bundan sonra Misirin belə bir addım atması müxtəlif formalarda qınandı. Ən azından ona görə ki, Misir Ərəb Respublikası müsəlman dövlətidir. Müsəlman dövlətində Dağlıq Qarabağdakı separatçı qurum təmsilçisinin müxtəlif rəsmi şəxslər tərəfindən qəbul edilməsi həm beynəlxalq hüquqa ziddir, həm də müsəlman təəssübkeşliyi ilə uzlaşmayan bir addımdır.

Bu arada Misirin Azərbaycandakı səfiri Adel İbrahim Ahmed İbrahim sözügedən məsələyə aydınlıq gətirib. Onun sözlərinə görə, Misir Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Misir və Azərbaycan arasındakı münasibətlər çox yaxşı səviyyədədir.

Səfir açıqlamasında xarici mətbuatda məlumat verilən qondarma Dağlıq Qarabağ "rəsmisi"nin Şarm-Əl-Şeyxin qubernatoru ilə görüşməsi məsələsinə toxunub. Bu görüşün rəsmi görüş kimi qəbul olunmadığını bildirən səfir qeyd edib ki, qarşı tərəf özünü Dağlıq Qarabağın deyil, Ermənistanın nümayəndəsi kimi təqdim edib. Səfər turistik xarakter daşıyıb, heç bir rəsmi səfərdən söhbət getmir. Səfir vurğulayıb ki, Misir dövləti üçün Dağlıq Qarabağ işğal edilmiş bir ərazidir: "Biz bu münaqişənin sülh yolu ilə həllini dəstəkləyirik".

Göründüyü kimi, qəzetimizin bu məsələni gündəmə gətirməsi Misirin Azərbaycandakı səfirliyinin hərəkətə keçməsinə səbəb oldu və ermənilərin növbəti yalan təbliğatı iflasa uğradı. Zaman-zaman Ermənistan Dağlıq Qarabağdakı separatçılara viza verərək onların xarici ölkələrə qanunsuz səfərlərini təşkil edir.

Ancaq Ermənistan pasportu ilə xaricə səfər edən separatçılar bundan şou məqsədilə istifadə edirlər. Elə bir yalan görüntü yaradırlar ki, guya separatçı qurum xaricdə qəbul olunur. Ancaq bu dəfə onların bu cəhdi fiaskoya uğradı.

***Vidadi ORDAHALLI***

# Azərbaycan Prezidenti Avropanın istəyinə inamla qarşı gedir - "nefti-qazı öz xalqıma dünya qiymətləri ilə satmayacağam"...

**Avropa İttifaqı ilə Azərbaycan arasındakı assosiativ sazişin imzalanmamasının səbəbləri məlum olub. Belə ki, Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu məsələyə aydınlıq gətirib.**



## *Elşən Manafov: "Prezidentin bu məsələyə məhz Azərbaycanın dövlət maraqları çərçivəsində yanaşaraq mövqe ortaya qoyması tamamilə əsaslıdır"*

Prezident vurğulayıb ki, cəmiyyətdə bu məsələ ilə bağlı tam dəqiq məlumat olmalıdır: "Sazişin bir neçə məsələsi hələ ki, müzakirə mövzusudur. Biz təklif olunan məsələlərə öz razılığımızı verməmişik və bunun səbəbi var. Onlardan biri ticarətlə bağlıdır. Bildiyiniz kimi, Azərbaycan Dünya Ticarət Təşkilatının üzvü deyil. Baxmayaraq ki, biz bir neçə ölkə ilə müzakirələri ikitərəfli formatda artıq başa vurmuşuq, ancaq mən hesab edirəm ki, hələ vaxt gəlib çatmayıb. Bunun da səbəbi ondan ibarətdir ki, bizim ixracımızın əsas hissəsi hələ ki, neft-qaz məhsullarıdır və bu məhsulları ixrac etmək üçün Dünya Ticarət Təşkilatına üzv olmaq lazım deyil. Digər tərəfdən, bizim əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır, yerli istehsalın artımıdır və belə olan halda biz daxili bazarımızı da qorumalıyıq.

Digər vacib məsələ energetika sektoru ilə bağlıdır. Burada da baxmayaraq ki, Avropa İttifaqı ilə enerji sahəsində bizim əməkdaşlığımız uğurludur və birgə layihələr icra edilir, ancaq sazişdə təklif olunan məsələlərin biri də, - mən istəyirəm ictimaiyyət onu da bilsin, - enerji daşıyıcılarının qiymətləri ilə bağlıdır. Belə bir bənd təklif olunur ki, Azərbaycanda təbii qazın daxili qiyməti ixrac qiyməti ilə bərabərlik təşkil etsin. Reallıqda bu nə deməkdir, bunu anlamaq o qədər də çətin deyil. Hazırda Azərbaycan istehlakçılarının təxminən 85 faizi təbii qazı çox ucuz qiymətə, yəni dövlət tərəfindən verilmiş subsidiya əsasında alır, qiymət də min kubmetr üçün 100 manatdır. İxrac qiyməti isə bundan bir neçə dəfə böyükdür. Əgər biz öz təbii qazımızı daxili qiymətlərlə satsaq, iqtisadiyyatımıza çox böyük ziyan dəyəcək".

Məlum olur ki, Prezident İlham Əliyev sırf xalqın mənafeyindən çıxış edərək sözügedən şərtləri qəbul etmir. Çünki enerji ölkəsi olan Azərbaycan bu məhsulları hazırkı dövrdə daxili bazarda ixrac qiyməti ilə satsa, o zaman bu, əhalinin sosial vəziyyətinə ciddi şəkildə mənfi təsir edəcək.

> *"Avropa İttifaqı assosiativ saziş məsələsində yalnız öz maraqlarından çıxış edir"*

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, Prezidentin Avropa İttifaqı ilə assosiativ saziş məsələsində sərgilədiyi mövqe tamamilə əsaslıdır: "Öz xalqının mənafeyindən çıxış edən dövlət başçısı, təbii ki, buna dirəniş göstərməlidir. Necə ki, biz bunu Prezident İlham Əliyevin timsalında görürük. Aİ-nin enerji daşıyıcılarının qiyməti ilə bağlı bu tələblərlə çıxış etməsi bizi qane edə bilməz. Avropa strukturları nəzərə almırlar ki, orada orta aylıq əməkhaqqı Azərbaycanla müqayisədə daha yüksəkdir. Belə olan halda, daxili bazarda qazı ixrac qiymətinə necə satmaq olar? Ona görə də Prezidentin bu məsələyə məhz Azərbaycanın dövlət maraqları çərçivəsində yanaşaraq mövqe ortaya qoyması tamamilə əsaslıdır. Məsələ ondadır ki, Aİ assosiativ saziş məsələsində yalnız öz maraqlarından çıxış edir. Bu isə Azərbaycanı qane edə bilməz. O üzdən, Prezident İlham Əliyevin Azərbaycan xalqının mənafeyindən çıxış edərək bu şərtləri qəbul etməməsi alqışlanmalıdır. Ən nəhayət, Azərbaycan hakimiyyətinin ÜTT-yə üzv olmağa tələsməməsi düzgün siyasətdir. Yəni biz haçan buna hazır olsaq, o zaman təşkilata üzv olacağıq".

***Vidadi ORDAHALLI***

# Prezident deputat üçün daha bir kriteriya müəyyənləşdirdi - hazırkı deputatların hansı hissəsi buna uyğun işləyib...

**"Bəzi hallarda, mən bilirəm, deputat seçilir, ondan sonra öz dairəsinə heç baş çəkmir, heç maraqlanmır". Bunu Prezident İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində deyib.**



## *Azər Həsrət: "Ölkənin hardasa 70 faizində vətəndaşlar öz deputatlarını tanımır"*

Ölkə başçısının fikrincə, parlament seçkiləri çox önəmli hadisədir və önəmli prosesdir: "Mən parlament üzvlərinin fəaliyyətinə qiymət vermək istəmirəm, çünki bu, hakimiyyətin başqa qoludur. Ancaq yeni seçiləcək deputatlara tövsiyəm odur ki, onlar öz dairələrində daha fəal olsunlar ki, vətəndaşlar onları tanısınlar, onlara müraciət etsinlər. Onlar yerli və mərkəzi orqanlar qarşısında məsələ qaldırsınlar. Əgər belə olarsa, bax, dediyim o ictimai nəzarətin bir forması da bu olacaq. Çünki bəzi hallarda, mən bilirəm, deputat seçilir, ondan sonra öz dairəsinə heç baş çəkmir, heç maraqlanmır. Sonra da növbəti seçkilər yaxınlaşanda başlayır ki, mənə dəstək verin. Yəni ona xalq dəstək verməlidir. Əlbəttə, Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi öz namizədlərini müdafiə edəcək. Bu da təbiidir. Bizdə sistem majoritar sistemdir, hesab edirəm ki, çox ədalətli sistemdir. Bu sistem seçilmiş millət vəkilini öz dairəsinə bağlayır. Mən bunu öz təcrübəmdən deyirəm. Çünki mən birinci dəfə 1995-ci ildə majoritar sistem əsasında parlamentin üzvü seçilmişdim. O vaxt mənim dairəm var idi və dairədə çox fəal idim".

Həqiqətən bir sıra deputatlar seçildikdən sonra, ümumiyyətlə, öz dairələrindəki problemlərlə, əhalini narahat məsələlərlə maraqlanmırlar. Üst-üstə yığılan problemlərin həlli ilə bağlı hər hansı təşəbbüslə çıxış etmirlər.

Maraqlıdır, sonuncu parlamentdə təmsil olunan deputatların təxminən neçə faizi səslənən kriteriyalara uyğun fəaliyyət göstərməyib?

Sözügedən məsələyə aydınlıq gətirən ekspert Azər Həsrət bununla bağlı bir sıra məqamlara toxundu: "İctimai sahədə fəal insan olaraq xüsusən də deputatlarla bağlı durumu müşahidə etmək üçün əlimdə unikal bir fürsət olub. O fürsətdən də yararlanaraq özümün müşahidələrimi, qənaətlərimi formalaşdırmışam. Demək olar ki, ölkənin hər tərəfindən vətəndaşlar, yaxud da ayrı-ayrı problemlərlə üzləşən vətəndaşlar az qala hər gün mənə sosial media üzərindən, mobil telefonla məlumat göndərirlər. Bu minvalla əlaqə saxlayır və problemlərinin həlli üçün kömək istəyirlər. Mən də dərhal onlardan soruşuram ki, deputatınız kimdir? Məlum olur ki, rayonlarda vətəndaşların çoxu deputatları tanımır. Bu, artıq bir göstəricidir. Təəssüflər olsun ki, bax, belə bir göstərici çox yüksəkdir. Ölkənin hardasa 70 faizində vətəndaşlar öz deputatlarını tanımırlar. Çünki onlar seçiləndən sonra dairələrdəki problemlərlə maraqlanmırlar. Məsələ ondadır ki, deputat yerində vətəndaşlarla təmasda olmadığına görə, seçildiyi rayona tez-tez gəlmədiyi üçün onu tanımırlar. Hətta Bakı şəhərinin özündə belə, elə deputatlar var ki, onları illərdir seçicilər axtarırlar, amma tapa bilmirlər. Bir çoxu deputatın qəbuluna belə düşə bilmir. Hazırkı parlamentdə olan deputatların hardasa 70 faizi bu qəbildəndir. Hazırda sözügedən deputatların bir qismi yenidən öz namizədliyini irəli sürüb, bu isə cəmiyyətdə ikrah hissi yaradır. Hesab edirəm ki, Prezidentin məlum çağırışı məhz o cür adamlara ünvanlanıb. Həmin adamlar islahatları tormozlamaq, hansısa formada bunu istəmirlərsə, öz şəxsi mənafelərini kənara qoyub meydandan çəkilməlidirlər.

> *"Hazırda sözügedən deputatların bir qismi yenidən öz namizədliyini irəli sürüb, bu isə cəmiyyətdə ikrah hissi yaradır"*

Mən özüm bölgələrə gedirəm. Soruşuram deputatınız kimdir, necə bir adamdır? Deyirlər ki, "filankəsin qohumudur, yaxşı yeyib-içən oğlandır". Bax, belə hallar var. Yəni belə deputatların sayı təəssüf ki, həddən artıq çoxdur. Parlamentdə fəal deputatlar da var, amma onların sayı çox azdır. Düşünürəm ki, fevralın 9-da yenilənən parlamentdə artıq belə adamlar oturmayacaq. Oturacaqları təqdirdə islahatlar əngəllənmiş olacaq. Ona görə də biz hamımız elə etməliyik ki, ölkə başçısının çağırışına uyğun olaraq yeni parlament xalqla təmasda olan, ümumiyyətlə, hər kəslə danışmağı bacaran, eyni zamanda, Azərbaycanı beynəlxalq platformalarda layiqincə təmsil etməyi bacaran insanlardan ibarət olsun".

***Vidadi ORDAHALLI***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib və öz müsahibəsində bir sıra maraqlı məqamlara, o cümlədən də Prezident kimi özünün iş qrafikinə toxunub. Ölkə başçısı bildirib ki, onun iş qrafiki çox gərgindir və hər zaman iş başındadır.**

# İcraçı məmurlarımız da Prezident kimi fasiləsiz işləyə bilirmi...



## **Bəhruz Quliyev:** *"Cənab Prezidentin özünə qarşı bu cür tələbkarlıqla yanaşmasından məmurlar nümunə götürməlidirlər"*

"...Onu da bildirməliyəm ki, mənim iş qrafikim çox gərgindir. Demək olar ki, iş qrafikimdə fasilə yoxdur. Hətta bazar günündə ki, mən işə çıxmıram, yenə də mən daim əlaqədəyəm. Bəlkə də Azərbaycanda yeganə adamam ki, mənim istirahət günlərim yoxdur. Çünki hər gün mənim üçün iş günüdür. Çünki hər gün məsələləri həll etmək lazımdır. Bir çox məsələlər çıxır ki, onlar operativlik tələb edir. Ona görə ictimaiyyətə təqdim olunan bəzi daxili görüşlər mənim iş qrafikimdə bəlkə də 5-10 faiz təşkil edir. Ancaq buna ehtiyac var. Həm də bu, ictimaiyyətə verilən bir növ hesabatdır, siyasətimizin əsas istiqamətlərinin dəqiqləşdirilməsidir. Eyni zamanda, kadrlar qarşısında qoyulan vəzifələrdir ki, ictimaiyyət də bunu bilsin. Misal üçün hansısa rayona icra başçısı təyin olunanda ona dediyim sözlər, verdiyim tövsiyələr, təbii ki, rayon ictimaiyyəti tərəfindən də qəbul edilir. Onlar artıq o adamdan bu meyarlara uyğun olmasını tələb edirlər və tələb etməlidirlər. Mən dəfələrlə demişəm ki, ictimai nəzarət daha güclü olmalıdır..." - deyə ölkə başçısı qeyd edib.

İcraçı məmurlarımız da Prezident kimi fasiləsiz işləyə bilirlərmi?

"Səs" qəzeti və eyniadlı İnformasiya Agentliyinin rəhbəri, tanınmış politoloq Bəhruz Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Prezident İlham Əliyevin iş qrafiki, fasiləsiz fəaliyyəti bütün məmurlar üçün bir nümunədir və məmurlar da ölkə başçısından örnək götürüb hər zaman öz işlərinin başında olmalıdırlar. "Sözsüz ki, ulu öndərin qurub yaratdığı, bünövrəsini qoyduğu Azərbaycanın bu cür inkişaf səviyyəsinə gəlib çatmasında Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi rolu var. Cənab Prezidentin rəhbərliyi ilə iqtisadi, siyasi, sosial sahədə, o cümlədən də xarici siyasətdə Azərbaycan çox böyük uğurlar əldə edib. Əlbəttə, bütün bunlar və ölkəmizdə görülən digər işlər çox gərgin iş qrafiki tələb edir. Daim işləməyə ehtiyac var. Cənab Prezident də özünün gərgin iş qrafikindən bəhs etməklə bir daha qeyd etdi ki, 24 saat çalışır və tələbləri də çox yüksəkdir. O, Azərbaycanı ən yüksək inkişaf etmiş ölkələr sırasında görmək istəyir. Azərbaycanın beynəlxalq aləmdəki yeri də onu deməyə əsas verir ki, bu, gərgin zəhmət sayəsində baş verib. Bu özü də bir daha göstərir ki, hər gün, hər dəqiqə işləməyə ehtiyac var".

B.Quliyev qeyd etdi ki, müasir Azərbaycanla keçən əsrin 90-cı illərindəki Azərbaycanı müqayisə edərkən burada tam və əsaslı şəkildə dəyişikliklərin baş verdiyini görürük. Bütün bunların ölkə başçısının zəhməti, fasiləsiz işləməsinin bariz örnəyi olduğunu deyən B.Quliyev qeyd etdi ki, həm ictimaiyyət, həm də beynəlxalq aləmdə əməkdaşlıq etdiyimiz dövlətlər bunu yaxından müşahidə edirlər. "Eyni zamanda da bu gün çağırışlar, tələblər fərqlidir. Cənab Prezident özü fasiləsiz işləyir və demək olar ki, onun istirahət günü olmur. Prezident vəzifələrə təyin etdiyi məmurları, icra başçılarını qəbul edərkən fasiləsiz iş qrafiki, 24 saat işləmək məsuliyyəti həmin məmurların üzərinə düşür. Bunu xüsusi qeyd etmək lazımdır ki, hər bir məmur 24 saat işdə olmalıdır. Çünki cənab Prezidentin özünə qarşı bu cür tələbkarlıqla yanaşmasından məmurlar nümunə götürməlidirlər. Ölkədə daha çox işin görülməsinə ehtiyac olduğunu cənab Prezident özü deyirsə, məmur da ölkə başçısının tapşırıqlarına ciddi şəkildə əməl etməli və günün tələbləri ilə ayaqlaşmalıdır. İcra hakimiyyəti başçıları yerlərdə camaata xidmət etməyə borcludurlar. Hesab edirəm ki, hər hansı bir məmur vəzifəyə təyin edilərkən onun üzərinə fasiləsiz işləmək məsuliyyəti qoyulur. Elə məmur var özü işini yaxşı bacarır, eləsi də var ki, bacarmır, bu da ictimaiyyətin və Prezidentin diqqətindən yayınmır. İşi bacarmayan, məsuliyyətini dərk etməyənlər vəzifədən azad edilir. Hər bir məmur 24 saat işinin başında olmalıdır, lakin bəziləri öz işlərinə məsuliyyətsiz yanaşır, belələrini də cənab Prezident işdən azad edir. Hər bir məmur cənab Prezidentdən nümunə götürməli, fasiləsiz iş qrafikinə keçməli və cəmiyyətə, dövlətə daha çox fayda verməlidir. Özü də cənab Prezident vəzifəyə təyin etdiyi məmurlara ictimaiyyətin gözü qarşısında tapşırıqlar verir. Məmurlar da çalışmalıdırlar ki, camaatla, ictimaiyyətlə daha çox işləsinlər, onların problem və qayğılarının həll olunmasında ölkə başçısına kömək olsunlar" - deyə B.Quliyev qeyd etdi.

***İradə SARIYEVA***

---

**"Mən bir çox rayonlara gedəndə, icra başçısı ilə söhbət edəndə deyirəm hansı problem var - hər şey əla. Axı belə ola bilməz. Ya özü bilmir, ya da ki, bunları ört-basdır etmək istəyir, ya da bilmirəm hansı məqsədi güdür". Bunu Azərbaycan Prezidenti İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində deyib.**

# Hansı növ icra başçısı daha çox olar - yerdəki problemi bilməyənlər, ya problemləri gizlətmək istəyənlər...



## **Şakir Ağayev:** *"Necə ola bilir ki, bəzi icra başçıları torpağın, obyektin satış qiymətini bildikləri halda, rəhbərlik etdikləri bölgənin problemindən xəbərsiz olurlar?"*

Prezident qeyd edib ki, bir çox məsələ var ki, onlar operativlik tələb edir. Ona görə ictimaiyyətə təqdim olunan bəzi daxili görüşlər ölkə rəhbərinin iş qrafikində bəlkə də 5-10 faiz təşkil edir. Ancaq buna ehtiyac var: "Həm də bu, ictimaiyyətə verilən, bir növ, hesabatdır, siyasətimizin əsas istiqamətlərinin dəqiqləşdirilməsidir. Eyni zamanda, kadrlar qarşısında qoyulan vəzifələrdir ki, ictimaiyyət də bunu bilsin. Misal üçün hansısa rayona icra başçısı təyin olunanda ona dediyim sözlər, verdiyim tövsiyələr, təbii ki, rayon ictimaiyyəti tərəfindən də qəbul edilir. Onlar artıq o adamdan bu meyarlara uyğun olmasını tələb edirlər və tələb etməlidirlər. Mən dəfələrlə demişəm ki, ictimai nəzarət daha güclü olmalıdır. Bunu, sadəcə, söz naminə demirəm. Bəlkə də bir çox hallarda bunu təkrarlayıram. Nəyə görə? Çünki bu yoxdur bizdə. Bilirsiniz, ya yoxdur, ya da ki, ibtidai vəziyyətdədir. Belə olmaz, ictimai nəzarət olmalıdır. Əgər ictimai nəzarət olmasa, biz məlumatı haradan əldə edəcəyik? Mən, misal üçün bildirmişəm və bir daha demək istəyirəm ki, bəzi hallarda mən mətbuatdan bir çox şeyləri öyrənirəm. Çünki bəzi məsələlər mənə məruzə edilmir. Çünki sərf etmir o adamlara məruzə etmək. Ona görə ya mən bölgələrə gedəndə çalışıram vətəndaşlardan vəziyyətlə bağlı öyrənim, onları narahat edən problemlər haqqında eşidim. Ya özüm gedirəm təftiş edirəm orada işləri, ya da ki, ictimaiyyətdən verilməlidir bu məlumat. Dövlət məmurları hər bir ölkədə ancaq yaxşı raport verməyi öyrəşiblər. Onlardan soruşsan deyərlər ki, hər şey əladır, hər şey mükəmməldir, heç bir problem yoxdur. Mən bir çox rayonlara gedəndə, icra başçısı ilə söhbət edəndə deyirəm hansı problem var - hər şey əla. Axı belə ola bilməz. Ya özü bilmir, ya da ki, bunları ört-basdır etmək istəyir, ya da bilmirəm hansı məqsədi güdür".

Maraqlıdır, icra başçıları hansı niyyətlə rəhbərlik etdiyi rayonda baş verən hadisələri Prezidentə məruzə etmək istəmirlər? Doğrudanmı onlar rayonda baş verən hər hansı bir hadisədən xəbərsizdir, ya da bilərəkdən nəyisə ört-basdır etmək üçün problemləri demək istəmirlər.

"Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, icra başçılarının hər biri rayonda baş verən hər hansi bir hadisəni hamıdan yaxşı bilirlər: "Necə ola bilir ki, bəzi icra başçıları torpağın, obyektin satış qiymətini bildikləri halda, rəhbərlik etdikləri bölgənin problemindən xəbərsizdirlər. Bəzi icra başçıları rayonda yaşanan problemlərin qabardılmasını, bunun Prezidentə çatmasını istəmirlər.

> *"Bəzi icra başçıları rayonda yaşanan problemlərin qabardılmasını istəmir, bunun Prezidentə çatmasına mane olurlar, ancaq..."*

İcra başçıları rayonda yaşanan neqativ hadisələrin Prezidentə çatdırılmasına mane olurlar. Onlar bilirlər ki, ölkə rəhbərliyi problemdən xəbərdar olan zaman bununla bağlı müvafiq tədbirlər görəcək və həmin şəxslər qanunla cəzalanacaq. İcra başçılarının rayonda baş verən hər hansı hadisə, problem haqqında məlumatsız olması inandırıcı görünmür. Nəzərə almaq lazımdır ki, bu gün yazılı media və televiziya vasitəsilə ölkədə baş verən hər hansı bir hadisə haqqında ictimaiyyətə məlumat verilir.

Mətbuat rayonda qeydə alınan hansısa problemi işıqlandıran zaman icra hakimiyyətlərinin nümayəndələri dərhal məsələyə reaksiya verib, xəbərin yalan olduğunu deyirlər. Ancaq Prezident onlardan problem haqqında soruşanda isə hadisədən xəbərsiz olduqlarını deyirlər. Bunun özü isə paradoksdur. Bütün məmurlar anlamılıdırlar ki, XXI əsrdə hər hansı bir hadisəni, problemi gizlətmək mümkün deyil".

Media kapitanı hesab edir ki, icra başçıları və digər məmurlar cavabdehlik daşıdıqları yerdə problemləri öyrənib, onun həlli ilə məşğul olsalar, daha yaxşı olar. Ümumiyyətlə, icra başçılarının əsas işi təyin olunduqları yerdə yaşanan problemləri həll etməkdən ibarətdir, torpaq satmaq yox.

***Günel CƏLİLOVA***

# Bələdiyyə namizədlərinin yalnız üçdə biri partiya üzvləridir - cəmiyyət partiyalara, ya partiyalar bələdiyyələrə çox etimad etmir...

**Dekabrın 23-də Azərbaycan tarixində sayca 5-ci bələdiyyə seçkiləri keçirildi. İlk dəfə 1999-cu il dekabrın 12-də keçirilən seçkilər Azərbaycanda yerli idarəetmə orqanlarının formalaşması və inkişafı üçün təməl rolunu oynayıb. Bələdiyyə institutunun yaradılmasından 20 il vaxt keçsə də, bələdiyyələrdən razı olanlarla yanaşı, narazı olanlar da var.**



Sonuncu bələdiyyə seçkilərində iştirak etmək üçün 41 841 nəfər müraciət edib. Onlardan 22 529 nəfərin namizədliyi qeydə alınıb. Belə ki, 27 249 nəfər fərdi qaydada müraciət edib. Habelə 14 564 nəfərin namizədliyi siyasi partiyalar, 28 nəfərin namizədliyi isə təşəbbüs qrupları tərəfindən irəli sürülüb. Bələdiyyə seçkiləri ölkə üzrə 5049 seçki məntəqəsində keçirilib. 118 seçki dairəsi üzrə 1606 bələdiyyəyə 15 min 156 üzv seçilib.

Seçkilərdə 13 siyasi partiya iştirak edib, 41 462 namizəd qeydiyyata alınıb. Səs vermək hüququna malik 4 972 356 seçicinin adı seçici siyahısına daxil edilib. Dekabrın 23-də seçki məntəqələrində seçici fəallığı 32.72 faiz olub.

## *Məhərrəm Zülfüqarlı: "Partiyaların çoxu zəif olduğuna görə cəmiyyət onlarla işləməyə meylli deyil"*

Maraqlıdır ki, seçkilərə qatılan və qeydə alınan namizədlərin təxminən üçdə biri siyasi partiyaların namizədləridir. Üçdə ikisi isə fərdi qaydada namizədliyini verib.

Bələdiyyə seçkilərində partiyadan namizədliyini verənlərin sayının az solması nə ilə bağlıdır? Partiyalar bələdiyyə seçkilərinə meylli deyil, yoxsa cəmiyyət siyasi partiyalara etimad göstərmir?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, bunun bir sıra səbəbləri var: "Azərbaycanda majoritar seçki sistemidir. Yəni partiyaların seçkidə iştirakı belə olur ki, onlar hansı dairədə kimi dəstəklədiklərini elan edirlər. Partiyalar seçkilərdə majoritar qaydada iştirak edirlər və sadəcə, partiya mənsubiyyətlərini yazırlar. Hesab edirəm ki, bir səbəb bununla bağlıdır. Yəni proporsional seçki sistemi olsaydı, o zaman bələdiyyə seçkilərində partiyalardan namizəd kimi iştirak edənlərin sayı daha çox ola bilərdi. Digər tərəfdən, partiyaların çoxu zəif olduğuna görə cəmiyyət onlarla işləməyə meylli deyil. Bu səbəbdən istəmirlər ki, partiyadan olan namizədlər çox olsun. Məsələ ondadır ki, qeydiyyatdan keçən 50 partiyadan vur-tut 5-6 partiya fəaldır, yerdə qalanların elə bir nüfuzu yoxdur. Ona görə də bələdiyyə seçkilərində namizədlərlə bağlı belə mənzərə yaranıb. Partiyalararası rəqabət güclü olarsa, yeni partiyalar nüfuz qazanarsa, o zaman cəmiyyət partiyalarla işləməkdə və bələdiyyə seçkilərində iştirak etməkdə maraqlı olacaq. Hakim YAP-dan başqa və bir neçə partiyanı çıxmaq şərtilə ictimaiyyət içərisində partiyaların nüfuzu çox aşağıdır. Belə olan halda, əlbəttə ki, namizədlər fərdi qaydada seçkidə iştirak etməyə önəm verirlər".

> *"...namizədlər fərdi qaydada seçkidə iştirak etməyə önəm verirlər"*

***Vidadi ORDAHALLI***

# Rusiya və Türkiyə Liviyada qarşı-qarşıya gəlir?

**Xəbər verildiyi kimi, Suriyanın şimal-şərqindəki terror qurulmasına böyük zərbə vurmaqla yanaşı bölgədə maraqları olan bəzi ölkələrin də planlarını pozan Türkiyə noyabrın sonlarında Liviyada Faiz Sərracın rəhbərlik etdiyi Milli Birlik Hökuməti ilə hərbi sahədə əməkdaşlıq və Aralıq dənizindəki sərhədlərlə bağlı qarşılıqlı anlaşmaya dair saziş imzalayıb.**



Baki-xeber.com xəbər verir ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan razılığı Liviyanın Tripolidə qərargahlanan və Fayiz Sarracın başçılıq etdiyi hökuməti ilə əldə edib. Bundan sonra

Ərdoğan bəyan edib ki, Türkiyə Liviya hökumətinin istəyi ilə bu ölkəyə hərbi qüvvə də göndərə bilər.

Liviya 2015-ci ildən bəri şərqdə, yəni Benqazidə qərargahlanan hökumətlə Tripolidə qərargahlanan digər hökumət arasında bölünüb. Liviya Milli Ordusu və şərqdəki hökumət Fransa, Rusiya və əsas ərəb ölkələri tərəfindən dəstəklənsə də, Tripolidə qərargahlanan hökuməti isə İtaliya, Türkiyə və Qətər dəstəkləyir.

General Xəlifə Haftarın başçılıq etdiyi Liviya Milli Ordusu paytaxt Tripolini ələ keçirmək üçün bir müddət əvvəl hərbi əməliyyatlara başlayıb. Ərdoğanın son bəyanatından sonra isə Liviyada Türkiyə ordusunun Xəlifə Haftar və xarici dəstəkçilərinə qarşı ölkəyə dəvət edilməsi çağırışları artmağa başlayıb. Buna isə Avropa, İsraillə yanaşı daha çox isə ərəb ölkələri qarşı çıxır.

Hətta üsyançı general Haftarın xarici dəstəkçilərinin Türkiyə ordusunun Liviyaya müdaxiləsinə qarşı bu ölkəyə hərbi qüvvə göndərdiyinə dair xəbərlər yayılıb. Belə ki, Misirin Türkiyənin mümkün müdaxiləsinə qarşı Liviyaya çox sayda tank göndərdiyinə dair məlumatlar yayılıb. İddianı ortaya atan İsrailin kəşfiyyat qurumu MOSSAD-a yaxınlığı ilə tanınan DebkaFile saytı Sisinin göstərişi ilə göndərilən ağır texnikanın Türkiyənin Liviyaya müdaxiləsinə qarşı istifadə ediləcəyini yazır. Sayt Misir ordusuna aid tankların ötən həftə Liviyaya göndərildiyini iddia edir. Kəşfiyyat qaynaqlarına istinadən bildirilir ki, bu əmr birbaşa Sisi tərəfindən verilib və Misir hərbi hava qüvvələri də hazır vəziyyətə gətirilib. DEBKAfile, Türkiyənin Liviyaya əsgər göndərilməsi planı reallaşarsa, Misirin hərbi hava qüvvələrinin də Türkiyəyə qarşı hərəkətə keçəcəyini yazır.

Türkiyənin Liviyada problem yaşaya biləcəyi bir başqa ölkə Rusiyadır. Türkiyə Liviyada qanuni hakimiyyəti dəstəkləyir. Rusiya isə qanuni hökuməti devirməyə çalışan üsyançı generalın yanında yer alır.

Ruslar üçün Suriya qədər önəmlidirsə, Liviya da o qədər önəm daşıyır. Suriya Aralıq dənizində əllərində saxladıqları limandır, Liviya isə Aralıq dənizindən çıxış limanıdır.

2011-ci ildən bəri Liviyada siyasi böhran, xaos və münaqişə hökm sürür. Ruslar isə bu situasiyada çox diqqətlə hərəkət edir. Bölgədəki varlıqlarını zəmanət altına almaq üçün Liviyadakı hər iki tərəflə təmasdadırlar. Buna baxmayaraq, Tripoli hökuməti bildirir ki, üsyançı general Rusiyanın birbaşa dəstəyi ilə irəliləyir. Məlumatlara görə, Ukraynada separatçıların, Suriyada Əsəd rejimin yanında döyüşən Rusiyanın məşhur Vaqner qrupu indi də Liviyada üsyançı generalın yanında Tripoli hökumətinə qarşı döyüşür.

Ərdoğan da bir müddət əvvəl rəsmi Ankaranın Haftarın Kremlə bağlı Vaqner qrupundan aldığı dəstəyi qulaqardına vura bilmədiyini deyib. "Vaqner adlı qrup Liviyada Haftarın muzdlu işçiləri kimi işləyir. Onlara kimin pul ödədiyini bilirsiniz" - deyən Ərdoğan daha sonra bildirib: "Bu belədir və bütün bunlara səssiz qalmağımız düzgün olmaz. İndiyə qədər əlimizdən gələni etdik və bundan sonra da edəcəyik".

Məlumata görə, Rusiya Türkiyənin Liviyaya qoşun göndərməsi perspektivindən çox narahatdır. Bununla belə, tərəflərin Liviyada üz-üzə gəlmə ehtimalı çox aşağıdır. Rusiyalı ekspert Pavel Evgenievich Felgenhauer də hesab edir ki, Türkiyə və Rusiya Liviya üçün qarşı-qarşıya gəlib savaşmayacaq:"Çünki bu vəziyyət Suriyada ciddi böhrana səbəb olar. Bundan başqa, Rusiya baxımından Türkiyə Liviyada daha çox strateji əhəmiyyətə sahibdir".

# Qarabağ məsələsində qəti dönüş olmayan il - iki tutarlı səbəblə bütün məsuliyyət Ermənistanın üstünə qoyuldu...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində Dağlıq Qarabağ probleminin həll edilməməsinin səbəblərini ətraflı izah edib: "Deyə bilərəm ki, 2019-cu il danışıqlar prosesi üçün itirilmiş il olub. Bunun da yeganə səbəbi odur ki, Ermənistan rəhbərliyi bu danışıqlarda qeyri-konstruktiv mövqe sərgiləyir və beynəlxalq vasitəçilər işğalçı ölkəyə lazımi təsir və təzyiq göstərmirlər.**

Məhz buna görə 2019-cu ildə, deyə bilərəm ki, danışıqlar trekində hər hansı bir ciddi irəliləyiş əldə olunmayıb".

Dövlət başçısı qeyd edib ki, eyni zamanda, Ermənistan rəhbərliyinin ziddiyyətli və bir-birini təkzib edən bəyanatları da əlbəttə ki, həm təəccüb, həm də təəssüf doğurur: "Biz hamımız yaxşı xatırlayırıq ki, Ermənistanın yeni rəhbərliyi ilkin mərhələdə ortalığa belə bir məsələ atmışdı ki, Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır, Dağlıq Qarabağ "müstəqil dövlətdir" və Ermənistan bu dırnaqarası müstəqil dövlətin işlərinə qarışa bilmir. Bunların hamısı cəfəng fikirlərdir. Çünki bu gün Dağlıq Qarabağda yerləşən hərbi birləşmənin 90 faizi Ermənistan vətəndaşlarından təşkil edilir. Hər il Ermənistan büdcəsindən Dağlıq Qarabağ büdcəsinə böyük vəsait transfer edilir. Ona görə buna müstəqil dövlət demək tam yalandır. Sadəcə olaraq, danışıqları uzatmaq, yaxud da ki, öz məsuliyyətini boynundan atmaq üçün belə ifadələr işlədilir.

Biz qətiyyən bu ifadələrlə razı ola bilmərik. Öz fikirlərimizi bildirmişik və eyni zamanda, Minsk Qrupunun həmsədr ölkələrinin səfirləri də oxşar bəyanatlar vermişlər. Danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Bu il önəmli hadisələrdən biri də odur ki, danışıqlar formatı dəyişməz olaraq qaldı. Hesab edirəm ki, bu, bizim diplomatik nailiyyətimizdir. Yeni Ermənistan rəhbərliyinin cəhdləri və təklifləri qəbul edilmədi. Bunu təsdiqləyən həm də o amildir ki, mənim Ermənistanın Baş naziri ilə görüşlərim olub. Ermənistan və Azərbaycan Xarici İşlər nazirləri görüşürlər, danışıqlar aparırlar. Sonuncu görüş bu ayın əvvəlində olmuşdur.

Digər tərəfdən, Azərbaycan dırnaqarası Dağlıq Qarabağ respublikası ilə danışıqlar aparmalıdır fikri baş tutmayandan sonra növbəti bir cəfəng tezis ortalığa atıldı, bu nu indi hər kəs eşidib, - Ermənistanın Baş naziri dedi ki, Qarabağ Ermənistandır və nöqtə. Yəni bu, əvvəlki tezisi tam təkzib edir və bu, növbəti yalandır. Çünki Qarabağ nə müstəqil ölkədir, - bunu heç kim tanımır, heç bir ölkə tanımır, - və bayaq qeyd etdiyim məsələlər - böyük beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar və yekun bəyannamələr onu göstərir ki, dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və Qarabağ Ermənistan deyil və bunu sübut etmək üçün heç səy göstərmək də lazım deyil.

Ona görə birinci dəfə də, ikinci dəfə də yalan söylənildi. Amma həqiqət ondan ibarətdir ki, - mən bunu canlı efirdə demişəm, - Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bizim danışıqlar prosesində mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Tarixi həqiqət bizim tərəfimizdədir. Biz bunu dünyaya sübut edə bilmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb. Biz hamımız yaxşı bilirik və bu gün dünya ictimaiyyəti də bizim apardığımız siyasət nəticəsində bilir ki, ermənilər Cənubi Qafqazda gəlmə millətdir, onlar Çar Rusiyası tərəfindən XIX əsrdə Rusiya-İran müharibəsindən sonra bizim bölgəmizə köçürülüblər. Qafqaz Rusiya imperiyasının tərkib hissəsi olandan sonra bizim bölgədə xristian əhalinin sayını çoxaltmaq üçün Şərqi Anadoludan və İrandan kütləvi surətdə ermənilər Dağlıq Qarabağa köçürülmüşlər. Bunu təsdiqləyən çoxsaylı tarixi sənədlər, faktlar var. Bu o qədər də uzaq tarix deyil. Yəni ermənilər bizim tarixi torpaqlarımıza köçürülmüşlər, ona görə ki, burada xristian əhali çoxalmalı idi. Ona görə bu, bizim tarixi torpağımızdır və bunu indi bütün dünya bilir. Bu, birincisi.

İkincisi, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və biz müstəqil ölkə kimi BMT-yə daxil olanda artıq Azərbaycanın ərazi bütövlüyü qəbul edilib, dəstəklənib və təsdiq edilib. Ona görə həm tarixi ədalət və həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişənin həlli məhz bu prinsiplər əsasında ola bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

O ki, qaldı xalqların öz müqəddəratını təyinetmə prinsipinə, - Ermənistan həmişə buna istinad edir, - bu prinsip artıq bu münaqişə ilə bağlı işləmir. Çünki erməni xalqı öz müqəddəratını artıq müəyyən edib. Onların müstəqil Ermənistan dövləti var, hansı ki, qədim Azərbaycan torpaqlarında yerləşir və biz Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik.

Ona görə bizim prinsipial mövqeyimiz bundan ibarətdir ki, ərazi bütövlüyü prinsipi üstünlük təşkil etməlidir, bizim ərazimiz bərpa edilməlidir və münaqişə yalnız bu prinsiplər əsasında öz həllini tapmalıdır.



Bundan əlavə, beynəlxalq təşkilatların qərar və qətnamələri, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in, Avropa Parlamentinin, Avropa Şurasının oxşar qərar və qətnamələri var. Qeyd etdiyim kimi, keçən il Avropa İttifaqı bizimlə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləyən sənəd imzalayıb".

Göründüyü kimi, Prezident münaqişənin həllinin uzadılmasının kökündə Ermənistanın qeyri-konstruktiv mövqeyinin durduğunu bildirib.

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, 2019-cu ilin danışıqlar prosesi üçün itirilmiş il olduğu ilə bağlı deyilənlərlə tam razıdır: "Cənab Prezident Ermənistan rəhbərliyinin münaqişənin həlli istiqamətində danışıqları imitasiya etməsi, beynəlxalq hüquq və normalara zidd və qeyri-konstruktiv mövqe sərgiləməsi və həmçinin, beynəlxalq vasitəçilərin işğalçı ölkəyə lazımi təsir və təzyiq göstərmədiyini qeyd etdi. Ermənistan Dağlıq Qarabağla bağlı danışıqlar prosesində 2019-cu ildə də illərlə yürütdüyü qeyri-konstruktiv mövqeyi davam etdirməyə, danışıqlar prosesini hər vəchlə uzatmağa, mövcud status-kvonu qoruyub saxlamağa çalışan bir siyasət yürütdü.

Münaqişənin həlli ilə bağlı heç bir konseptual yanaşmaya malik olmayan Ermənistanın Baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ mövzusu ətrafında nəyin ki, ATƏT-in Minsk Qrupu çərçivəsində əldə olunmuş razılaşmalara zidd, problemin həllində tərəflərin razılaşdırdığı bəndlərin pozulması ilə müşayiət olunan, yenilənmiş Madrid prinsiplərini şübhə altına alan mövqe sərgilədi və hətta münaqişədə kövrək sülhün zədələnməsi istiqamətində sistemli fəaliyyət qurdu. Məsələn, Dağlıq Qarabağda məhz Ermənistan ordusu və bu ölkənin məhkəmə-hüquq sisteminin mövcudluğunun Avropa İnsan Haqları Məhkəməsinin qərarı ilə ("Çıraqov və başqaları Ermənistana qarşı" - Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci, 13-cü və 14-cü maddələrinin və Konvensiyaya dair 1 saylı Protokolun 1-ci maddəsinin pozuntusu haqqında Azərbaycan Respublikasının vətəndaşları Elxan Çıraqov, Adışirin Çıraqov, Ramiz Cəbrayılov, Akif Həsənov, Fəxrəddin Paşayev və Qaraca Cəbrayılovun 6 aprel 2005-ci il tarixdə verilmiş iddiası üzrə Avropa İnsan Haqları Məhkəməsi tərəfindən 16 iyun 2015-ci il tarixdə qəbul edilmiş qərarı) təsbit olunmasına rəğmən, qondarma qurumun büdcəsinin Ermənistan büdcəsindən transferlər əsasında formalaşmasına rəğmən, qondarma qurumu müstəqil bir təsisat kimi qələmə verməyə çalışması da məhz danışıqlar prosesini uzatmaq üçün atılan addımlardır.

Prezidentin çıxışında Ermənistan rəhbərliyinin, həmçinin, məsuliyyəti öz boynundan atmaq üçün işlətdiyi ifadələr haqqında fikirləri də çox maraqlıdır".

Ekspertin sözlərinə görə, yekunlaşmaqda olan 2019-cu il, həmçinin, dünyanın bütün qitələrində fəaliyyət göstərən mütəşəkkil erməni cinayətkar şəbəkəsinin fəaliyyəti haqqında çoxsaylı ifşa məlumatları ilə bol bir il oldu: "Bu ilin əvvəlində Britaniyalı araşdırmaçı-yazıçı Harold Keynin nəşr etdirdiyi "Narko Qarabağ" ("Narco Karabakh") kitabında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindəki, fəsadları Qafqaz regionundan çox-çox uzaqlara çıxaraq, Avropa Birliyi və Yaxın Şərq ölkələrinə qədər şəbəkələnmiş, beynəlxalq birliyə dərin təsir göstərə bilən cinayətləri (insan alveri, silah alveri, narkotraffik və s.) və cinayətkar şəbəkəni aşkara çıxarıb.

Ermənistanın Dağlıq Qarabağı müstəqil bir qondarma qurum olaraq göstərməsi cəhdləri də bu cinayətlərdən boyun qaçırmaq kimi uğursuz bir cəhd idi. Bu isə, əlbəttə, təkcə Azərbaycan deyil, Cənubi Qafqaz regionunda sülhün və inkişafın bərqərar olunması üçün çalışan bütün maraqlı tərəflərin, nizamlayıcı missiya daşıyan beynəlxalq qurumların diqqətini çəkdi.

Lakin məhz Prezidentin də qeyd etdiyi kimi, Ermənistanın bu qeyri-konstruktiv yanaşması beynəlxalq vasitəçilər tərəfindən lazımınca təpki görmədi və bu mövqeyin qarşısını ala biləcək imkan və perspektivlər lazımınca dəyərləndirilmədi.

Dağlıq Qarabağ münaqişəsinin həllinə dair konseptual yanaşmaya malik olmayan, beynəlxalq münasibətlərdə səriştəsiz Paşinyan bölgədə kövrək sülhün zədələnməsi yönündə ard-arda təxribatlara əl atdı.

Xüsusi qeyd etmək istədiyim bir məqam məhz Prezidentin müsahibəsində beynəlxalq vasitəçilərin təzyiq və ya təsir imkanları haqqında fikirləri ilə bağlıdır. Məsələ ondadır ki, beynəlxalq vasitəçilərin regionda dayanıqlı sülhün əldə olunması üçün Ermənistana təzyiq və təsir vasitəsi kimi istifadə oluna biləcək informasiya, diplomatik və iqtisadi rıçaqları mövcuddur. Xüsusilə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləyən sənəd imzalayan Avropa İttifaqının bu istiqamətdə imkanları genişdir. Lakin bu rıçaqların 2019-cu ildə istifadə olunmasının şahidi olmadıq.

Prezidentin də qeyd etdiyi beynəlxalq təşkilatların qərar və qətnamələri, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in, Avropa Parlamentinin, Avropa Şurasının oxşar qərar və qətnamələrin həyata keçməsində real addımların şahidi olmadıq. Ancaq bu heç bir halda irəlidəki illərdə bu rıçaqların istifadə olunmayacağı anlamına gəlməməlidir. Çünki beynəlxalq münasibətlərdə naşı olan Paşinyanın siyasəti Ermənistan dövlətinin bu mövzularda manevr imkanlarının tükənməsinə səbəb olub".

*Məhəmmədəli* **QƏRİBLİ**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Azərbaycanın yeni silahları Ermənistanı indidən lərzəyə gətirir

**Son günlərdə Ermənistanda yenə əsas müzakirə mövzularından biri Azərbaycanın Rusiyadan yeni silahlar ala biləcəyi ilə bağlıdır. Bu məsələ, xüsusən də son nəsil Su-57 qırıcılarının Azərbaycana satılmasına dair Rusiya mediasında məlumatların yayılmasından sonra xüsusi diqqət mərkəzində yer alır.**

Erməni mediası yazır ki, Azərbaycan istənilən halda hərbi üstünlüyü əldən vermək niyyətində deyil və bu səbəbdən Su-57 qırıcılarının Azərbaycan ordusunun ixtiyarında olması tamamilə mümkündür.

Xatırladaq ki, ölkəmizin Rusiyadan müasir hərbi texnikalar alması davamlı xarakter daşıyır və bu məsələyə "Vedomosti" nəşri yenidən qayıdıb. Nəşr qeyd edir ki, Azərbaycan Rusiyadan beşinci nəsil Su-57 qırıcılarını almağa maraq göstərir. Rusiyanın müdafiə sənayesi şirkətlərindən birinin iki topmeneceri "Vedomosti"yə bildirib ki, Su-57 qırıcılarının Azərbaycana satılmasına dair danışıqlar prosesinə yüksək siyasi səviyyədə yaşıl işıq yandırılıb. Bildirilir ki, oktyabrın 3-də Soçidə prezidentlər Vladimir Putin və İlham Əliyev arasında baş tutmuş danışıqlarda iki ölkə arasında hərbi-texniki əməkdaşlıq məsələləri də müzakirə olunub. Bu məlumatı Kreml administrasiyasına yaxın mənbə də təsdiq edib. "Vedomosti" qeyd edir ki, həmin vaxt "Valday" forumunda çıxış edən prezident Əliyev təfərrüatlara varmadan hərbi-texniki əməkdaşlığın genişləndiriləcəyini deyib. Dekabrın 3-də isə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov rusiyalı həmkarı Sergey Lavrovla danışıqların yekunu olaraq "Kommersant"a müsahibəsində deyib ki, Rusiya ilə silahlara dair yeni sövdələşmələr mümkündür. "Vedomosti" qeyd edir ki, son onillikdə Azərbaycan Rusiya ilə təxminən 5 milyard dollarlıq silah müqaviləsi bağlayıb. Məsələ ilə bağlı Prezident Əliyevin Soçidə bildirdiyinə görə, indiyədək 3 milyard dollarlıq silah artıq çatdırılıb. Rusiya nəşri daha sonra yazır:"Bu silah sövdələşmələrinin aviasiya hissəsi ancaq Mi-17 və Mi-35 vertolyotları ilə məhdudlaşıb, hərçənd, Azərbaycan özünün döyüş aviasiya parkının yenilənməsinə də ciddi ehtiyac duyur. Çünki döyüş aviasiyasının əsasını modernləşdirilmiş MiQ-29 sovet qırıcıları təşkil edir. Azərbaycan çoxdandır JF-17 Pakistan-Çin qırıcılarını almağa maraq göstərir və artıq Pakistandan MFI-395 "Super Mushshak" yüngül təlim-məşq təyyarələrini alıb". "Vedemosti" əlavə edir ki, Azərbaycanın Su-57 qırıcılarına maraq üçün dönüş nöqtəsi Ermənistanın Rusiyadan 4 Su-30SM qırıcısı alması, daha 8 təyyarə almağa hazırlaşması olub. Azərbaycanla yanaşı, Su-57 qırıcılarını almağa Türkiyə də maraq göstərir. "Silah ixracı" jurnalının baş redaktoru Andrey Frolov hesab edir ki, Azərbaycanla Su-57 qırıcılarına dair danışıqlar Bakı tərəfdən bəzi şərtlərlə müşayiət oluna bilər. İlk növbədə maliyyələşmə mexanizmi barədə şərtlərlə. Ekspert hesab edir ki, Azərbaycan ən uzağı bir eskadrilya Su-57 qırıcısı almaq istərdi. Bu təyyarələri almaq istəyi bir tərəfdən də Ermənistanın Su-30SM qırıcıları əldə etməsi ilə bağlı yaranıb:"Hesab edirik ki, Azərbaycan daha üstün təyyarə almağı lazım bilir. Digər tərəfdən, Azərbaycan Hərbi Hava Qüvvələri keyfiyyət və miqdarca müəyyən yenilənməyə ehtiyac duyur, ona görə də seçim təkcə Su-57 qırıcıları ilə bağlı deyil. Qiyməti xeyli ucuz olan Çin-Pakistan qırıcıları da diqqət mərkəzindədir".

Rusiyanın Birləşmiş Aviatikinti Korporasiyasındakı mənbə də bundan əvvəl bildirib ki, Rusiya Azərbaycana istənilən növ döyüş təyyarələrinin satışına hazırdır. Korporasiya nümayəndələri bildiriblər ki, ötən illərdə Azərbaycana Su-30SM və MiQ-35 təyyarələri təklif olunub. Rusiya tərəfi indi də adıçəkilən təyyarələrin Azərbaycana ixracı üçün danışıqlara hazır olduğunu bəyan edib. Məhz belə bir vaxtda o da məlum olub ki, Azərbaycan gələn il ən azı 1 milyard dollarlıq silah almağı düşünür. Belə ki, Azərbaycanda 2020-ci ilin dövlət büdcəsinin layihəsinə görə bütün dövlət büdcəsi xərcləri 1.7% artdığı halda, müdafiə xərclərinin büdcəsi xeyli, yəni 20.9% artırılmaqla 2.267 milyard dollara çatıb. Bunun 945 milyon dolları silah alışı və hərbi-sənaye sərmayəsi üçün nəzərdə tutulub. Qeyd edək ki, ordunun digər növləri ilə yanaşı, hərbi aviasiyanın gücləndirilməsi də rəsmi Bakının əsas prioritetlərindən biri sayılır. Elə yeni döyüş təyyarələrinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının (PUA) alınması, ölkədə PUA istehsalının yaradılması, aviaparka daxil olan təyyarələrin və helikopterlərin modernləşdirilməsi bunun real təsdiqidir. Bundan başqa, belə görünür ki, yaxın tezlikdə Azərbaycan hərbi aviasiya arsenalına yenə Ermənistanda olmayan yeni döyüş təyyarələri də daxil edə bilər. Bunu rusiyalı hərbi politoloq Pavel Felqenhauer də təsdiq edir. O bu xüsusda bildirir: "Azərbaycanın böyük imkanları var və o, istədiyi silahı əldə edir. Ermənistana isə Rusiyadan başqa heç bir ölkə kreditlə silah verməz. Azərbaycan, misal üçün, Türkiyədən F-16 döyüş təyyarələri ala bilər. Bu təyyarələri Türkiyə və ABŞ birgə istehsal edir, o cümlədən ixrac edirlər. Təbii ki, bu təyyarələrin Azərbaycana satılması üçün ABŞ-ın razılığı olmalıdır. Düşünürəm ki, Vaşinqton F-16-ların Azərbaycana satılmasına razılıq verəcək". Politoloq bildirib ki, Azərbaycan Rusiyadan da döyüş təyyarələri, elə Su-30SM-ləri ala bilər: "Moskva Bakının belə bir istəyini dərhal yerinə yetirər. Hətta Azərbaycana birbaşa zavod istehsalı olan təyyarələr satılar".

Erməni politoloq Suren Sarkisyan isə bildirir ki, Bakının istər Türkiyə, istərsə də ABŞ-ın özündən hərbi texnika almasında hansısa problem yoxdur. O, Azərbaycanın artıq Türkiyədən çoxsaylı müasir hərbi texnika aldığını bildirir: "Azərbaycan ABŞ-dan da belə texnika ala bilər. Özü də sabiq dövlət müşaviri Con Boltonun regiona məlum səfəri zamanı ABŞ bu prosesdə maraqlı olduğunu açıq bəyan etdi. Ermənistanla müqayisədə Azərbaycanın ABŞ-la əlaqələri bir neçə dəfə daha çoxdur". Erməni politoloq müxtəlif mənbələrdən əldə etdiyi məlumatlara əsasən bildirib ki, Azərbaycan silah-sursat əldə edilməsi istiqamətində fəal iş aparır və ABŞ-dan mümkün olan hər şeyi əldə etmək niyyətindədir. Qeyd edək ki, Azərbaycan artıq Amerika istehsalı olan 4 hərbi helikopter alıb. Həmin helikopterlər də ötən il keçirilən hərbi paradlarda nümayiş olunub. Bundan əlavə, Azərbaycan digər Qərb ölkələrindən də silah alır. Məsələn, ölkəmiz artıq İtaliyadan 10 ədəd hərbi məqsədlər üçün istifadə olunan, reaktiv təlim-məşq təyyarəsi olan "M-346 Master" alıb. Azərbaycan daha 15 ədəd "M-346 Master" təlim-döyüş təyyarəsi sifariş verib. "M-346 Master" İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan hərbi məqsədlər üçün istifadə olunan reaktiv təlim-məşq təyyarəsidir. Digər tərəfdən o da məlumdur ki, Azərbaycan Pakistandan da yeni nəsil qırıcılar almağı düşünür. Artıq Pakistanla Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq zaman keçdikcə daha da dərinləşir və möhkəmlənir. Bu fonda Azərbaycan Çin və Pakistanın birgə istehsalı olan dördüncü nəsil "JF-17 Thunder" çoxməqsədli qırıcı təyyarəsini əldə etmək niyyətini dilə gətirib. Bütün bunlar aviasiya sahəsində Azərbaycanın düşmən üzərində mühüm üstünlüklərinin real təsdiqidir. Erməni ordusu bunların qarşısında duruş gətirmək iqtidarında deyil.

Məsələ burasındadır ki, Ermənistanın hava hücumundan müdafiə qüvvələrinin döyüş hazırlığının lazımi səviyyədə saxlanması Rusiyadan asılıdır. Amma Rusiya bu prosesə diqqət yetirmir. Digər tərəfdən, Rusiya Ermənistana hansısa yeni hava hücumundan müdafiə sistemi də vermir. Burada ən müasir hava hücumundan müdafiə sistemi S300PT/ PS-dir. Amma onlarda istfiadə edilən 5V55R/5V55RM zenit raketlərinin zəmanət müddətinin vaxtı çoxdan bitib. Rusiyadan ehtiyat hissələrin tədarükü və yerli müəssisələrdə aparılan təmir işləri səbəbindən zenit raket sistemlərinin avadanlıqlarını işlək vəziyyətdə saxlamaq çətinliklə mümkün olur. Artıq Ermənistanın hava hücumundan müdafiə sisteminin mövcud döyüş potensialını qorumaq üçün S-300PT/ PS hava hücumundan müdafiə sistemlərini və köhnəlmiş radarları əvəz etmək lazımdır. Ermənistanın maddi vəziyyətinin müasir silahların genişmiqyaslı satın alınmasına imkan vermədiyini nəzərə alsaq, bunun mümkün olmayacağını da bəri başdan demək olar. Bütün bunlar o deməkdir ki, Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələri qarşısında dayanması qeyri-mümkündür. Bunun yaxın tezlikdə real həyatda öz təsdiqini tapması da tamamilə gözlənilən sayılır. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru David Şahnazaryan bu xüsusda bildirir ki, hərbi əməliyyatlar təhlükəsi əhəmiyyətli dərəcədə böyüyüb və istənilən an müharibə başlaya bilər. Onun sözlərinə görə, bu hal Ermənistanın hazırkı hökumət rəhbərinin həm intellektual məhdudiyyətlərini, həm də təsəvvürlərini nəzərə almaqla qəbuledilməz olmalıdır:"Biz aydın şəkildə başa düşməliyik ki, "Kalaşnikov" avtomatını necə mənimsədiyini gördüyümüz bir şəxs hərbi əməliyyatlar şəraitində həm cəbhə xəttinin müdafiəsini, həm də bütöv siyasəti həyata keçirə bilməz". Şahnazaryan Azərbaycan ordusunun gücünün mütləq şəkildə nəzərə alınmasının vaciblyini də xüsusi vurğulayır. Bütün bunlar bir daha təsdiq edir ki, yeni Qarabağ savaşının nəticələri Ermənistan üçün çox ağır olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# İkinci Cümhuriyyətin qurucuları komandası - Elçibəyin və Heydər Əliyevin komandasında "mübahisəsiz cümhuriyyət qurucuları" varmı...

**XX əsrdə Azərbaycan xalqının və dövlətinin taleyinə bir yüzillikdə iki dəfə müstəqil dövlətə malik olmaq düşüb. Azərbaycanın dövlətçilik tarixində önəmli rolu olan Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyində təmsil olunan görkəmli dövlət xadimlərinin adları Cümhuriyyət qurucuları kimi Məhəmməd Əmin Rəsulzadə ilə yanaşı çəkilir.**

Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Fətəli Xan Xoyski, Ceyhun Hacıbəyli, Əli bəy Hüseynzadə, Məmməd Həsən Hacınski, Xəlil bəy Xasməmmədov, Sultanməcid Qənizadə, Yusif Vəzir Çəmənzəminli, Əhməd bəy Pepinov, Əhməd bəy Ağaoğlunun və daha çox şəxsiyyətin adlarını qeyd edə bilərik ki, onlar Azərbaycanın dövlətçilik tarixinə əbədi olaraq düşüblər. Bir məsələ var ki, adlarını çəkdiyimiz və çəkmədiyimiz Cümhuriyyət qurucularının hər birinin Cümhuriyyətin qurulmasında böyük rolu var və tarix onları unutmur.

Birinci Cümhuriyyət dövründə Məhəmməd Əmin Rəsulzadə ilə yanaşı, Cümhuriyyətin qurulmasında rolu olan və adları yaşayan ən azı 15 böyük şəxsiyyət var ki, onların adlarını çoxlarımız tərəddüd etmədən sadalaya bilərik. Cümhuriyyətin rəhbəri M.Ə.Rəsulzadə olsa da, dövlətçiliyin qurulmasında heç də adlarını yuxarıda çəkdiyimiz dövlət xadimləri ondan az xidmət göstərməyiblər.

Bu gün birinci Cümhuriyyət hökumətində təmsil olunmuş böyük şəxsiyyətlərin hər biri ayrı-ayrılıqda Cümhuriyyətə qol-qanad verən şəxsiyyətlər olub və bu şəxsiyyətlərlə bağlı heç bir mübahisəli fikir yoxdur, çünki onları xalq mübahisəsiz olaraq qəbul edir.

İkinci Cümhuriyyət dövründə isə vəziyyət tamam başqadır. Məsələn, ikinci Cümhuriyyət dövründən danışarkən qismən Əbülfəz Elçibəy, sonrakı dönəmdə isə tam olaraq Heydər Əliyev Cümhuriyyət qurucusu kimi qəbul edilir. Maraqlıdır ki, ikinci Cümhuriyyət qurucuları deyəndə yada Elçibəy və Heydər Əliyev düşür, onların heç birinin komandasının burada rolu görünmür. Azərbaycana rəhbərlik edən hər iki dövlət xadiminin adı ikinci Cümhuriyyətin qurucusu kimi tarixə həkk olunsa da, lakin heç birinin komandasına daxil olan şəxslərin adları mübahisəsiz qəbul edilmir.

Bu gün ölkəmizdə birinci Cümhuriyyət qurucuları haqqında danışarkən, onların xatirəsini əbədiləşdirərkən biz onların fəaliyyətləri ilə də yaxından tanış ola bilirik. Çünki onlar xalqın, dövlətin mənafeyindən çıxış ediblər. 200 ildən sonra II Cümhuriyyət qurucuları haqqında yazılarkən, onların xatirə muzeyləri yaradılarkən heç birinin tarixdə izinin qalmadığını görəcəklər, Elçibəy və Heydər Əliyevdən başqa, onların komandasından heç kəs tapılmayacaq. Amma Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski və başqalarının fəaliyyəti heç bir mübahisə doğurmayacaq.

Birinci Cümhuriyyət qurucularının, demək olar ki, böyük əksəriyyətinin adları dövlət qurucusu kimi çəkilirsə, lakin II Cümhuriyyət dövründə qismən Elçibəyin və tam olaraq Heydər Əliyevin özlərindən başqa kimsənin adının çəkilməməsi (Yəni elə şəxslər yoxdur ki, onlar qədər xidmət göstərsinlər) nə ilə bağlıdır?





***Elçin Mirzəbəyli:** "...onların hansı səbəbdən dövlət quruculuğunda rolunun görünmədiyini izah etmək çətindir"*

***Firdovsiyyə Əhmədova:** "Məsuliyyət Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra birinci şəxslərin üzərində olub"*

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəyli bizimlə söhbətində bildirdi ki, Cümhuriyyət qurucuları ilə II Cümhuriyyət dövründə yaşayan şəxsləri eyniləşdirmək olmaz. "1918-ci ildə qurulan Xalq Cümhuriyyəti və 1991-ci ildə qurulan müstəqil Azərbaycan dövləti arasında kifayət qədər fərq var. Ümumiyyətlə, bu məsələyə zaman kontekstində yanaşmaq olar. 1918-ci ildə Azərbaycan Çar Rusiyasının tərkibindən çıxmışdı. Xarici ölkələrdə yüksək təhsil alan azərbaycanlılar ölkəyə qayıdaraq Cümhuriyyəti qurdular. Onların hər biri dövlətçiliyin qurulmasında iştirak etdilər. Sovet dövründə isə Azərbaycan formal da olsa dövlətçilik statusuna malik idi. 70 il ərzində Azərbaycan dövlət kimi fəaliyyət göstərib. Sonrakı proseslər isə mövcud dövlətin üzərindən həyata keçirilib. Bu baxımdan təcrübələr fərqli olmalıdır. 1918-ci ildə Cümhuriyyəti quranlar yoxdan bir dövlət yaratdılar. Elçibəy Azərbaycan Milli Azadlıq Hərəkatının şəriksiz lideridir, bunu heç kəs dana bilməz. Amma Azərbaycan dövlətini quran isə Heydər Əliyevdir. Tarixi şəxsiyyətlərə zaman, məkan kontekstində baxılmalıdır. Hazırda həm Elçibəyin, həm də Heydər Əliyevin komandasına daxil olan insanların çoxu həyatdadır və bu baxımdan onlara hər hansı bir formada qiymət vermək olmur, onların hansı səbəbdən dövlət quruculuğunda rolunun görünmədiyini izah etmək çətindir. Hesab edirəm ki, 50-100 il bundan sonrakı nəsil özü Rəsulzadənin komandası ilə Elçibəyin və Heydər Əliyevin komandasının fəaliyyətini analiz edəcək və səbəbləri qeyd edəcək. Hələlik isə bu məsələyə qiymət vermək tezdir" - deyə E.Mirzəbəyli qeyd etdi.

Tanınmış tarixçi-alim, tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova da hesab edir ki, bu məsələdə fərqli yanaşma tələb olunur: "Cümhuriyyətin qurulması tamamilə başqa şəraitdə və başqa şərtlər altında gerçəkləşmişdi və bu prosesi indiki dövrə aid etmək olmaz. Azərbaycanın dövlət müstəqilliyi bərpa edilənə qədər də SSRİ tərkibində olsa da, ölkəmiz respublika kimi mövcud idi. Bu baxımdan, 1918-ci illə 1991-ci ildəki şərait tamam başqa idi. Buna görə də bu, müxtəlif müstəvilərdə müzakirə edilməli məsələdir. 1991-ci ildə Azərbaycan dövləti öz müstəqilliyini elan edəndə Sovetlər Birliyi var idi və Azərbaycan Respublikası da onun tərkibində müttəfiq bir respublika idi. Baxmayaraq ki, SSRİ-nin dağılması Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında Konstitusiya Aktının qəbul edilməsindən sonra baş verdi. Təbii ki, Cümhuriyyət, dövlət qurmaq bir adamın bacaracağı iş deyil, düzdür, əsas yük siyasi rəhbərin üzərinə düşür, amma komanda da ona kömək edir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkəmiz üçün çox təlatümlü bir dövr başladı. 1991-1993-cü illər ərzində Azərbaycan torpaqlarının işğala məruz qalması, ərazilərimizin itirilməsi erməni təcavüzü nəticəsində baş versə də, ölkədə baş verən siyasi proseslər də bu məsələyə birbaşa təsir edən amil idi. Bu da hakimiyyətdə siyasi cəhətdən hazırlıqlı, dövlət vəzifəsində təcrübəli şəxslərin necə təmsil olunmasından asılıdır. 1988-ci ildə Ermənistan tərəfdən Azərbaycan torpaqlarına qarşı təcavüz olanda Azərbaycan xalqı və onun öndə gedən insanları milli demokratik hərəkatı formalaşdıra bildilər və bu hərəkat nəticəsində ölkəmizin dövlət müstəqilliyi bərpa olunub. Əbülfəz Elçibəy həmin dövrdə o hərəkatın başında duran şəxsiyyət idi. Nəticə etibarilə də Elçibəy və komandası 1992-ci ildə hakimiyyətə gəldilər. Sonra isə Azərbaycan dövlətinin sınaq qarşısında qalması və yeni böhranın yaranması nəticəsində xalq Heydər Əliyevə müraciət etdi və o, hakimiyyətə gəldi. Bu prosesdə isə əsas ağırlıq, məsuliyyət ayrı-ayrı şəxslərin yox, liderlərin üzərinə düşür. Siyasi hakimiyyətdə lider olmaq xalqın məsuliyyətini öz üzərinə götürmək deməkdir. 1993-cü il Heydər Əliyevin hakimiyyətə gəlməsi və onun bu məsuliyyəti daşıması ilə müşayiət edildi".

F.Əhmədova qeyd etdi ki, 1993-cü il dövlətin böhrandan, dağılmaqdan xilas edildiyi bir dövr kimi tarixə düşüb. O dedi ki, həmin dövrdə məsuliyyəti Heydər Əliyev daşıyırdı və o da hakimiyyətə komandası ilə gəldi. Məsuliyyət Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra birinci şəxslərin üzərində olub. Amma birinci şəxslər də ölkəni idarə ediblər".

***İradə SARIYEVA***

**Ermənistanda baş verən son olaylar bu ölkədə əhalinin mövcud hakimiyyətdən sosial narazılığının artıq özünün pik həddinə çatmaqda olduğunu göstərir. Hadisələr indiki templə inkişaf edərsə, Nikol Paşinyan iqtidarının devrilmə təhlükəsi ilə üzləşməsi belə istisna olunmur.**

# Paşinyanın da sonu çatdı...

MPG şirkətinin rəhbəri Aram Navasardyan da bildirir ki, son sorğular əhalinin Paşinyandan narazılığının artmaqda olduğunu üzə çıxarır. O, respondentlərin 32,2%-nin yeni hökumətin təcrübəsizliyi, 27%-nin isə köhnə problemlərin dərinliyi ucbatından istəklərini icra edə bilmədiyini bəyan edib. Navasardyan Ermənistan baş nazirinin fəaliyyətini cəmi 37,4% respondentin tam dəstəklədiyini (keçən il 61,2% idi) bildirib.

"Çiçəklənən Ermənistan" fraksiyasının deputatı Gevorq Petrosyan bunların kökündə Paşinyanın vədlərinin sözdən o tərəfə keçməməsinin durduğunu bildirir:"Paşinyan iqtisadi inqilabdan danışırdı, amma ortada heç nə yoxdur. O, qohum-yaxınlara vəzifələr paylamamaq vədləri vermişdi, amma reallıq bunun əksidir. Ölkəyə gələcək xarici investorlar haradadır?". O qeyd edib ki, bu mənada, konstitusiyada "Ermənistan Respublikası" sözünü "Yalan Krallığı" sözü ilə sakitcə əvəz etmək olar. "Daşnaksütyun" partiyasının ali orqanının üzvü, keçmiş iqtisadi inkişaf və investisiyalar naziri Artsvik Minasyan da vəziyyətin acınacaqlı olduğunu bildirir. O qeyd edir ki, 2019-cu il Ermənistan üçün itirilmiş imkanlar və yeni təhlükələrin yaranması ili kimi yadda qaldı. Minasyan bildirib ki, yeni təhlükələr Ermənistan dövlətinin, cəmiyyətinin həyatında ən azı yeddi mühüm sahədə özünü büruzə verir. Sabiq nazirin sözlərinə görə, təhlükələrin ilk üçlüyü beynəlxalq münasibətlər, Dağlıq Qarabağ münaqişəsi və Ermənistan ordusu ilə bağlıdır. Onun fikrincə, digər problemlər isə ictimai münasibətlərlə əlaqədardır ki, bunlardan biri Ermənistanda dözümsüzlük mühitinin yaranmasıdır:"Hakimiyyəti formalaşdıranların şəxslərin davranışlarından qaynaqlanan nifrət dolu ifadələr, təəssüf ki, Ermənistanda adi hala çevrilib. İnternetdə, demək olar ki, hər gün yüz minlərlə təhqiramiz şərhlər görmək olar. Ermənistan hakimiyyəti, nəyin bahasına olursa-olsun, manipulyasiya yolu ilə yeni hədəflər, yeni rəqiblər və yeni düşmənlər seçir". Minasyanın fikrincə, digər bir problem hakimiyyətin avtokratiya qurmaq üçün atdığı addımlardır. O, Ermənistan hakimiyyətinin məhkəmələrə təzyiq etdiyini, siyasi partiyaların sıradan çıxdığını da vurğulayıb.

Minasyan Ermənistanda siyasi təzyiqlər üzündən xaricə qaçanların sayının artmasını da baş verənlərin nəticəsi kimi qiymətləndirib. "Novosti Armeniya" isə bu fonda bildirir ki, Ermənistanda barəsində cinayət işi açıldığına görə Rusiyaya qaçan yüksək vəzifəli keçmiş dövlət məmurlarının sayı artıq 5-ə çatıb. Belə ki, dekabrın 23-də İrəvanın Avan və Nor Nork rayon Məhkəməsinin keçmiş hakimi Samvel Uzunyan barəsində beynəlxalq axtarış elan edilib. Bildirilib ki, dekabrın 20-də Ermənistan baş prokuroru müavininin qərarı ilə Uzunyana qarşı Cinayət Məcəlləsinin rüşvət alma maddəsi ilə ittiham irəli sürülüb. O, 51 min dollar məbləğində rüşvət almaqda təqsirləndirilir. Uzunyan isə istintaqdan yayınmaq və Ermənistandan qaçmaq üçün fırıldağa əl atıb. Belə ki, o, əl yükünü



İrəvanın Zvartnos hava limanına göndərib. Keçmiş məhkəmə hakiminə məxsus bağlamadan güllə aşkarlanıb. Hüquq-mühafizə orqanları onu həbs etmək istəyiblər, amma tapa bilməyiblər. Dekabrın 23-də isə Uzunyanın Moskvaya qaçdığına dair məlumat yayılıb. Ehtimal edilir ki, Uzunyan keçmiş hakimiyyətin siyasi-iqtisadi maraqlarına dair müxtəlif qruplarla bağlı məlumata malikdir. Həmçinin o, hazırda həbsdə olan keçmiş prezident Robert Köçəryanın yaxın adamlarından sayılır. Bu şəxsdən əlavə, 2008-ci il matın 1-də baş verən hadisələrə görə barələrində ittiham irəli sürülmüş həmin olaylarla bağlı cinayət işini araşdıran istintaq qrupunun keçmiş başçısı Vahan Arutyunyan, Ermənistanın keçmiş baş prokuroru Gevorq Kostanyan və keçmiş müdafiə naziri Mikael Arutyunyanın Rusiyaya sığındıqları məlumdur. Bununla yanaşı, istintaq təcridxanasının keçmiş başçısı Miqran Poqosyanın da Rusiyada gizləndiyi bildirilir.

Qeyd edək ki, Nikol Paşinyan Ermənistanın baş naziri olandan sonra siyasi rəqiblərini daha çox inzibati yolla cəzalandırır, onları həbsə atır. Ermənistan parlamenttinin deputatı Arman Babacanyan da qeyd edir ki, Paşinyanın xalqı öz arxasınca aparıb uçurumdan atmaq istəyi özünü qabarıq göstərir:"Mən populyarlığı artıq düşmüş hakimiyyətin manipulyativ yollara əl atmasında böyük problem görürəm. Nikol Paşinyanın hökuməti avtoritarizmə tərəf gedir və baş verənlər onun yalnız ilkin əlamətləridir". Belə vəziyyət, öz növbəsində, Paşinyandan narazılığı daha da artırır. Regionun ən zəif ölkəsi statusunu daşıyan Ermənistanda yaşanan iqtisadi, siyasi böhran, etirazlar, əhalinin yoxsulluq səviyyəsinin gündən-günə artması, demoqrafik vəziyyətin hər keçən gün daha da pisləşməsi, ekspertlərə görə, Paşinyan üçün ciddi problemdir. Bundan isə Paşinyana qarşı olan qüvvələr məharətlə istifadə edir. Ermənistan parlamentinin keçmiş vitse-spikeri Eduard Şarmazanov bildirir ki, belə vəziyyətdə Paşinyanın hakimiyyətdən devrilməsi çox yaxın zaman ərzində baş verə bilər.

Onun sözlərinə görə, Nikol Paşinyan bir il ərzində verdiyi vədləri yerinə yetirməyib. Eyni mövqeni Ermənistanda bir çox rəsmi vəzifələr tutmuş David Şahnazaryan da sərgiləyir: "Paşinyanın hökuməti nə edir? O, məqsədyönlü olan müsbətləri dağıdır, mənfiləri inkişaf etdirir. Davamlı olaraq öz çağırışları, bəyanatları ilə qeyri-sabitlik yayır. Qalmaqallar təşkil edir. Daha sonra bu qalmaqalları harda gizlədir? Mütəmadi olaraq mövzuları dəyişməklə yeni qalmaqalların altında gizlədir. İctimaiyyət narazılıq edəndə, sorğu-suala çəkəndə, daim mövzuları dəyişir. Bu isə onun sonunu gətirir".

***Nahid SALAYEV***

## Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın qardaşı oğlu həbs edildi

**İrəvan məhkəməsi Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın qardaşı oğlu Narek Sarkisyanın həbs olunması barədə hökm çıxarıb. "Trend"in erməni KİV-inə istinadən məlumatına görə, bu barədə Ermənistanın Baş Prokurorluğu məlumat yayıb.**

Qeyd edək ki, Narek Sarkisyan bir neçə gün əvvəl Çexiyadan Ermənistana gətirilmişdi.

N.Sarkisyan silah və narkotik vasitələr saxlama, fırıldaq ittihamları ilə axtarışa verilmişdi. O, həmçinin, "adam oğurluğu"nda şübhəli bilinir.

N.Sarkisyan bir müddət əvvəl Praqada saxta Qvatemala pasportu ilə saxlanmışdı. Çexiya Ədliyyə Nazirliyi onun Ermənistana ekstradisiyası barədə qərar çıxarmışdı.

# Azərbaycanın mənzil tikinti bazarında qiymət inhisarçılarına tutarlı zərbə - dövlətin müdaxilə layihəsi...

**Daşınmaz əmlak bazarında son dövrlərdə kifayət qədər maraqlı proseslərin cərəyan etməsi müşahidə olunmaqdadır. Belə görünür ki, dövlətin prosesə müdaxiləsi mənzil bazarında təklifin artmasına, bu da öz növbəsində qiymətlərin enməsinə əsaslı surətdə təsir göstərir.**

Bu fonda qeyd edək ki, Bakıda ötən ay həm təkrar, həm də ilkin mənzil bazarında qiymətlərdə azalma qeydə alınıb. Araşdırmalar göstərir ki, noyabr ayı ərzində təkrar mənzil bazarında qiymətlərdə 4.84 faiz, ilkin mənzil bazarında isə 1.57 faiz azalma müşahidə olunub.

Ötən illə müqayisədə də təkrar mənzil bazarında azalma qeydə alınıb. Belə ki, təkrar mənzil bazarında azalma 1.4 faiz təşkil edib. Hesab ediir ki, dövlət vəsaiti hesabına tikilib bazara təklif edilən mənzillərin sayı artdıqca ucuzlaşma prosesi daha geniş vüsət alacaq. Dövlət isə inşa edilən güzəştli mənzillərin sayını daha da artırmağı düşünür. Hər halda, İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının elə bu günlərdə 637 milyon manata çatdırılması da bunun təsdiqidir. Xatırladaq ki, Prezident İlham Əliyev bir neçə gün əvvəl bununla bağlı fərman imzalayıb. Fərmanla fondun nizamnamə kapitalı əlavə 71 milyon manat artırılıb.

Qeyd edək ki, sözügedən fond vətəndaşlara mənzil məsələsində mühüm üstünlüklər vəd edir. Belə ki, İpoteka və Kredit Zəmanət Fondu hesabına ölkə vətəndaşları, ipoteka kreditləri ilə yanaşı, həm də evləri kirayə götürmək hüququna malikdir. Müvafiq mexanizmə əsasən, vətəndaşlar mənzili kirayə götürdükdən sonra ona sahib də ola biləcəklər. Mənzili kirayə edən vətəndaşın aylıq ödənişləri evin xərcindən çıxılır. Müqavilə bağlanandan 3 il sonra isə kirayəçi mənzilin sahibinə çevrilmək imkanı qazanacaq. Bu zaman o, daha çox ödəniş etməklə müqaviləyə vaxtından əvvəl xitam verib mənzilə sahib ola bilər. Və ya ödənişi davam etdirib 25 il ərzində ona sahib ola bilər. Artıq fondun təklif etdiyi evlərə tələb kifayət qədərdir. Nizamnamə kaptitalını artıran fond bunun vasitəsilə bazara artıq daha çox mənzil təklif edə bilir. Elə iqtisadçı-ekspert Rəşad Həsənov da məsələyə bu prizmadan yanaşır:"Son dövrlərdə fond bazarda böyük həcmdə istiqrazlar yerləşdirib və bunun hesabına vəsaitlər cəlb edib. Beləliklə də öhdəlikləri artıb. Nizamnamə kapitalının artırılması yolu ilə bu fərq aradan qaldırılmalıdır. Bu, maliyyə məsələsidir və davamlı olaraq atılan addımdır. İpoteka və Kredit Zəmanət Fondunun bazarda olması əhalinin mənzil təminatının yaxşılaşdırılması üçün bir mexanizmdir. Bu, mənzil təminatının yaxşılaşdırılmasına təsir göstərir. Fond bazarda daha fəal iştirak edirsə, yəni ipoteka kreditlərinin sayı artırsa, bu, bazarda tələbi artıran amildir. Tələb artırsa, bu müəyyən qədər qiymətlərə artım istiqamətli təsir göstərə bilir. Amma indiki halda görünən ondan ibarətdir ki, daha asta templə bazarda iştirakçılığa üstünlük verilir. Bu da növbəti dövrlərdə qiymətlərə ciddi təsirin olacağını proqnozlaşdırmağa əsas vermir. Ümumiyyətlə, fond əhalinin mənzil təminatının gücləndirilməsinə müsbət təsir göstərir. Sosial layihələrdən biri olan kirayə mənzillərin verilməsi mexanizmi əhalinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində dördüncü mexanizm hesab oluna bilər. Bu alternativlərin olması gənc ailələrin, aztəminatlı sosial qrupların mənzil şəraitinin yaxşılaşdırılmasına öz təsirini göstərəcək". Elə iqtisadçı-ekspert Natiq Cəfərli də "sputnik" portalına bildirir ki, fondun nizamnamə kapitalının artırılması, ən azı, insanlara daha çox kredit verilməsi imkanlarını da artıra bilər:"Ya nizamnamə kapitalının artırılması, ya da dövlət büdcəsindən əlavə vəsaitlərin ayrılması yolu ilə veriləcək kreditlərin həcminin artırılmasına çalışılır. Bunu bir tərəfdən anlayışla qarşılamaq olar. Digər tərəfdən isə Fond özü-özünü maliyyələşdirməlidir. Hazırda həyata keçirilən layihələr çərçivəsində fond tərəfindən veriləcək ipotekaların həcminin artırılmasına şərait yaranıb. Buna görə də nizamnamə kapitalının artırılması yolu ilə əlavə vəsaitin kreditlərə yönləndirilməsinə çalışılır. Ola bilər, gələcəkdə daha çox insanın fondun xidmətlərindən istifadə edərək mənzil sahibi olmasına imkanlar artsın".



Bütün bunlar İpoteka və Kredit Zəmanət Fondunun nə dərəcədə mühüm əhəmiyyətə malik olduğunu bir daha göstərir. Digər tərəfdən məlumdur ki, adi ipoteka ödənişlərində ilkin ödəniş 15-20 faizdirsə, fond mənzillərinin satışında ilkin olaraq aylıq ödənişin 12 misli qədərində vəsait tələb edir. İlkin ödənişin aşağı olması, kirayə qiymətinin digər ipotekaların aylıq qiyməti ilə müqayisədə az olması, aydındır ki, çox müsbət haldır. Özü də satılan mənzillər hazır, standart təmirli və mətbəx mebeli ilə təmin olunur.

**Bütün bunlar həm də onu deməyə əsas verir ki, aztəminatlı və o cümlədən də gənc ailələrin mənzil təminatının yaxşılaşdırılması istiqamətində fond effektiv mexanizm sayıla bilər. Eyni zamanda, onların mənzil probleminin həllinə uyğun şərtlərin müəyyənləşməsi üçün əlverişli mühit yaranır. Həmçinin qeyd edək ki, İpoteka və Kredit Zəmanət Fondu "ASAN" xidmət mərkəzləri ilə razılaşma əldə edib. Vətəndaşların işinin asanlaşdırılması və şəffaflaşdırılması məqsədilə "ASAN" kirayə mənzillər təklif olunur.**

***Ramil QULİYEV***

**Dekabrın 24-də - dövlət başçısının doğum günündə Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Fairmont" otelində keçirilmiş ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasında növbəti mühüm addım və məhkəmə istifadəçiləri üçün çox faydalı olan "Mobil məhkəmə" proqram təminatının geniş ictimai təqdimatı keçirilib.**

# Azərbaycanda hər kəs "Mobil məhkəmə" informasiya sistemindən istifadə edə biləcək...

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən "Bakı-Xəbər"ə bildirildiyinə görə, tədbirdə Ədliyyə Nazirliyinin, Məhkəmə-Hüquq Şurasının, Baş Prokurorluğun, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Vəkillər Kollegiyasının məsul şəxsləri, Milli Məclisin deputatları, hakimlər, sahibkar və bank sektorunun təmsilçiləri, ictimaiyyətin, vətəndaş cəmiyyəti institutlarının və çoxsaylı KİV nümayəndələri iştirak edib.

Təqdimatı açan Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət inkişafı kursunu uğurla həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın demokratik inkişaf yolu ilə inamla irəlilədiyini, bütün sahələrdə qazanılan nailiyyətləri qeyd edib, məhkəmə-hüquq sistemindəki islahatlardan və yeniliklərdən danışıb. Dövlət başçısının həyata keçirdiyi çoxşaxəli islahatlara dəyərli töhfələr verən Azərbaycanın Birinci-vitse prezidenti Mehriban Əliyevanın xidmətlərini qeyd edib.

Bildirilib ki, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə sisteminin inkişafı üçün mühüm "yol xəritəsi" olub və ötən müddətdə xeyli işlər görülüb. Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü ilə artıq bir sıra yeni, o cümlədən bu ərəfədə vahid məhkəmə təcrübəsinin formalaşdırılması, habelə məhkəmə ekspertizasının keçirilməsi ilə əlaqədar fəaliyyətin təkmilləşdirilməsi, özəl məhkəmə ekspertizası institutunun yaradılması ilə bağlı mühüm qanunlar qəbul olunub.

Həmçinin bu gün ədliyyə sahəsində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirildiyi qeyd olunaraq xüsusi elektron notariat elektron çantası, yalnız Azərbaycanda mövcud olan elektron ədliyyə köşkü və Azərbaycan məhsulu olan mobil notariat proqram təminatı, habelə azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin - elektron qolbaqların tətbiqi barədə məlumat verilib.




Qeyd olunub ki, Prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən və Dünya Bankı ilə birgə işlənilərək hazırlanmış "Elektron məhkəmə" informasiya sistemi istifadəyə verilib.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması üzrə əməli tədbirlər görülüb, o cümlədən məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə kompüterə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştiraka və sair imkan verən "Mobil məhkəmə" proqram təminatı işlənib hazırlanıb. Ölkəmizdə rəqəmsal transformasiyanın daha bir nümunəsi olaraq yaradılan "Mobil məhkəmə"nin dünyada tətbiqinə çox az rast gəlinir və demək olar ki, Azərbaycan bu sahədə birincilər sırasındadır.

A.Sabitova bildirib ki, bugünkü tədbirin anonsu ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun Prezident İlham Əliyevə həsr edilmiş "Məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı" adlı məqaləsində verilib.

Tədbirdə mobil məhkəmə barədə təqdimat nümayiş etdirilib. Məlumat verilib ki, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılmasına xidmət edən "Mobil məhkəmə" dekabrın 24-dən istifadəyə verilir. Artıq vətəndaşlar "Mobil məhkəmə" proqram təminatını bu linkə (https://play.google.com/store/apps/details?id=com.emehkeme) daxil olmaqla öz telefonlarına yükləyərək "Elektron məhkəmə" informasiya sisteminin imkanlarından mobil qaydada istifadə edəcək və faydalana biləcəklər.

Digər çıxış edənlər məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə məlumatları mobil qaydada dərhal əldə etməyə imkan verən "Mobil məhkəmə" proqram təminatının istifadəyə verilməsini yüksək qiymətləndirib.

Sonra sual-cavab sessiyası keçirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Tədbir musiqili bədii hissə ilə davam edib.

**Elə bir ailə tapmaq çətindir ki, heç olmasa həftədə bir-iki dəfə taksi xidmətindən istifadə etməsin. Paytaxtda taksi fəaliyyəti göstərən şirkətlər çoxaldıqca və ondan istifadə edənlərin sayı artdıqca, onların xidmət haqqının aşağı salınması, daha keyfiyyətli xidmət göstərməsi məsələsi gündəmdədir.**

# Sifarişli taksi xidmətlərində qiymət qoymanın anlaşılmaz prinsipləri - eyni məsafəyə hər şirkət bir qiymətə aparır...




Bakıda fəaliyyət göstərən saysız taksi şirkətinin keyfiyyətli xidmət göstərməsi bir yana, qiymətləri də günü-gündən artırması narahatlıq doğuran məqamlardandır. Məsələ burasındadır ki, eyni ünvana hər taxsi şirkəti fərqli qiymətə aparır, taksi şirkətlərinin hərəsi özü üçün bir tarix müəyyən edir. Hətta eyni şirkətdən gün ərzində eyni ünvana taksi sifariş verdikdə qiyməti fərqli deyirlər.

Yeri gəlmişkən qeyd edək ki, taksi şirkətlərinin özlərinə xidmət tarixi müəyyən etməsi, eyni ünvana gediş haqqının müxtəlif olması ciddi narazılıqlar doğurur.

Onu da vurğulayaq ki, Bakı Nəqliyyat Agentliyi (BNA) paytaxtda fəaliyyət göstərən taksilərdə vahid tarifin tətbiq olunması ilə bağlı təklif də irəli sürüb, lakin taksi şirkətləri bunu birmənalı qarşılamayıb.

İqtisadçılar isə hesab edirlər ki, vahid tarif müəyyən ediləcəyi təqdirdə qiymətlər bahalaşacaq, taksi xidmətləri arasında rəqabət olmayacaq. Son zamanlar taksi şirkətlərinin eyni ünvana fərqli qiymətlərə aparması müzakirə edilir.

"Bakı-Xəbər" olaraq ünvan kimi Bakı Dövlət Universitetindən (BDU) Azərbaycan Dövlət Tibb Universitetinə kimi ərazini seçdik, bir neçə taksi şirkəti ilə əlaqə saxladıq.

İlk olaraq tez-tez istifadə etdiyimiz *8555 taksi xidməti ilə əlaqə saxladıq. Xidmətdən bildirdilər ki, sözügedən ünvana xidmət haqqı 3 manat 30 qəpikdir. *2111-dən isə xidmət haqqının 2 manat 90 qəpik olduğu bildirildi. *9933-də qiymət 2 manat 52 qəpik oldu. Sözügedən ünvana "Ekonom taksi" (*9111) 3, "Sity taksi" (8844) 3 manat 70 qəpiyə aparır.

Daimi oxucularımızdan biri bizimlə söhbətində çox maraqlı bir statistika təqdim etdi. O qeyd etdi ki, bu günlərdə "Memar Əcəmi" metrostansiyasından "Nəriman Nərimanov"a kimi olan ərazi üçün "Salam taksi" (*9933) - 2,67 manat, "Bakı taksi" (0635) - 5,85 manat, "189 Taxi" (*189) - 4,20 manat, "Sity taksi" (*8844) - 3,98 manat, "Ekonom taksi" (*9111) - 3,90 manat, "Taxi24" (*2424) - 3,80 manat, "Felix Taxi" (*5959) - 3.69 manat, "Elit taxi" (*6969) - 3,53 manat, "OK taxi" (*3003) - 3,51 manat, "Ulduz taksi" (*5000) - 3,51 manat, "Çiçək taksi" (*5151) - 3,10 manat tələb edib. Bu da bizim paytaxtımızda fəaliyyət göstərən taksi şirkətlərinin eyni ərazilərə fərqli xidmət qiymətləri... Hesab edirik ki, şirkət taksiləri üçün xüsusi gediş-gəliş tarifləri müəyyən edilməli və əlaqədar qurumlar onların işinə, o cümlədən də qiymət tariflərinin ciddi nəzarət etməlidirlər.

***İradə SARIYEVA***

**Azərbaycanda daşınmaz əmlakın sığortası icbari olsa da, heç də bütün mənzillərin sığortalandığını demək olmaz. Yığılan sığorta haqlarının həcmi də bu sahədə ciddi problemlərin olduğunu göstərir. İcbari Sığorta Bürosunun məlumatına əsasən, ölkədə əmlakın sığortalanmasından illik cəmi 30 milyon manat sığorta haqqı toplanır.**

# Yeni ildən əmlakın məcburi sığortasından narazılıq(?) - bu ki, vətəndaşın özünə sərfəlidir...

Bununla belə, 2020-ci il yanvar ayının 1-dən etibarən evlərin məcburi sığortalanması ciddi nəzarətə götürüləcək.

Onu da bildirək ki, "İcbari sığortalar haqqında" Qanuna görə, yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortası onların konstruktiv elementlərinə, otaqlarına, o cümlədən, şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərinə, bəzək elementlərinə, bütün növ xarici, yaxud daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlərə təminat verir.

Mənzillərin sığortasının icbari olmasının bir çox müsbət tərəfi var. Sığortalı mənzil hər hansı bir qəza hadisəsi ilə üzləşərsə, sığorta şirkəti həmin zərəri dərhal qarşılayacaq.

Mənzillərin məcburi sığortlanmasının əhəmiyyəti haqqında danışan əmlak eksperti Elnur Fərzəliyev isə bildirdi ki, daşınmaz əmlakın icbari siğorta etdirilməsi vətəndaşların xeyrinədir: "Dünya praktikasında hər hansı hadisə baş verərsə, mənzillərə dəyən ziyan sığorta şirkətləri tərəfindən ödənilir. Azərbaycanda isə bu yük dövlətin üzərinə düşür. Məsələn, bu il Şamaxıda və digər bölgələrimizdə zəlzələdə dağılan evlərin sığortası yox idi və həmin evlərə dəymiş ziyanın aradan qaldırılmasına dövlət kömək etdi. Bu səbəbdən daşınmaz əmlakın sığortalanması olduqca vacibdir. Sığorta olarsa, dəyən ziyanın dərəcəsindən asılı olaraq, sığorta şirkətləri tərəfindən o qarşılanır. Yəni bundan sonra paytaxtda sənədləri olan və sığortalanan istənilən mənzildə hər hansı bir hadisə baş verərsə, sığorta şirkətləri dəyən ziyanın təxminən 25 min manata qədərini qarşılayacaq. Bölgələrdə isə bu, daha az - 15 min manata qədərdir. Bu gün Naxçıvanda bütün mənzillər sığortalanıb. Digər ərazilərdə isə daşınmaz əmlakın icbari sığortasının tam tətbiq edilməsinə mənzillərin çıxarışının olmaması mane olur. Çıxarışı olmayan mənzillər mülkiyyət kimi tanınmır və mülkiyyət hüququ olmadığına görə şirkətlər onu sığortalamırlar. Əslində, bu, bütün mənzillərə şamil olunmalıdır.

Bununla yanaşı, vətəndaşlar sığorta üçün etibarlı şirkətlərə müraciət etməlidirlər ki, sabah yaranacaq hansısa problem zamanı sığorta şirkətləri dəyən ziyanı aradan qaldırmağa köməklik göstərməkdən boyun qaçırmasınlar".



***Elnur Fərzəliyev:** "Mənzilin sığortası olarsa, dəyən ziyanın dərəcəsindən asılı olaraq, sığorta şirkətləri tərəfindən qarşılanır"*

***Nüsrət İbrahimov:** "Son zamanlar fors-major hadisələr tez-tez baş verdiyi üçün, daşınmaz əmlakın icbari sığortası zərurəti ortaya çıxıb"*

***İlkin İbrahimov:** "Yeni tikilən binalarda vətəndaşlar bu sığorta növünü könüllü şəkildə ala bilərlər"*

"MBA Group" konsaltinq şirkətinin baş direktoru Nüsrət İbrahimov qeyd etdi ki, artıq hər kəs daşınmaz əmlakını sığortalamalıdır. Lakin bu, sığorta sənədi olan evlərə aiddir və sənədi olmayan evlərin sığortalanması hazırkı vəziyyətdə mümkün deyil. Çünki 1-2 il vaxt lazımdır ki, çıxarışları olmayan evlər sənədləşdirilsin: "Bakı şəhərində yaşayış evləri və mənzillərin sığorta məbləği 25 min manat, sığorta haqqı isə 50 manat (illik), Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində sığorta məbləği 20 min manat, sığorta haqqı isə 40 manat və digər rayonlarda sığorta məbləği 15 min manat, sığorta haqqı isə 30 manatdır. Hesab edirəm ki, bu məbləğ hər hansı hadisə zamanı mənzillərə dəyən ziyanın aradan qaldırılması üçün hazırkı dövrdə kifayətdir".

Ekspert onu da vurğuladı ki, son zamanlar fors-major hadisələr tez-tez baş verdiyi üçün daşınmaz əmlakın icbari sığortası zərurəti ortaya çıxıb: "Əgər daşınmaz əmlak sahibinin diqqətsizliyi və ya digər səbəbdən evlərə ziyan dəyirdisə, bu zaman onlar icra strukturlarına üz tuturdular. Artıq vətəndaşlar bilməlidirlər ki, özəl daşınmaz əmlaklarına dəyən ziyan da onlara aiddir. Necə ki, bu məsələ artıq avtomobil bazarında formalaşıb. Eləcə də mənzil bazarında bu ənənəni formalaşdırmalıyıq. Artıq vətəndaşların evlərinə hər hansı səbəbdən dəyən ziyanı müqavilə imzaladıqları sığorta şirkətləri qarşılayacaq".

**Sığorta sahəsi üzrə ekspert İlkin İbrahimov bildirdi ki, daşınmaz əmlakın sığortalanmasında standart qiymətlər müəyyən edilib - 50, 40 və 30 manat: "Bakı şəhərində mənzilin birinin sığortalanması illik 50 manatdır, böyük şəhərlərdə illik 40 manat, rayonlarda isə illik 30 manatdır. Məcburetmə tədbiri və cərimə tətbiqetmə mexanizmi "kupça"sı olanlara aiddir.**

Yeni tikilən binalarda vətəndaşlar bu sığorta növünü könüllü şəkildə ala bilərlər. Amma bu sığorta növünü almasalar da, onunla bağlı cərimə gəlməyəcək. Çünki "kupça"sı olmayan yaşayış binalarında yəqin ki, cərimənin tətbiqi mümkün deyil. Sənədsiz evlərlə bağlı qanunda müvafiq norma nəzərdə tutulmayıb.

**Əgər qonşudan mənzilinizə su tökülübsə, vətəndaş sığorta şirkətinə müraciət edir. Sığorta şirkəti gəlib bunu qiymətləndirir və dəymiş ziyanın məbləği vətəndaşa ödənilir. Məsələn, Bakıda 50 manatın müqabilində maksimum 25 min manatlıq sığorta ödənişi ola bilər".**

***Günel CƏLİLOVA***

2019-cu ilin son günlərini yaşayırıq. Artıq neçə gündür bütün evlər Yeni ilin atributu olan yolkalarla bəzədilib. Üstündəki oyuncaqlar, böyründəki şaxta baba və qar qız, qışı simvollaşdıran bütün bər-bəzək də öz yerində. Ciblərin geniş açıldığı bu günlərdə valideynlər azyaşlı uşaqlarını şaxta babanın adı ilə sevindirməyi də unutmurlar.

# Rəsmi icazəsi olmayan şaxta babaların geyimində evlərinizə adi quldurlar da gələ bilər



## Aytəkin Kamranqızı: "Vətəndaşlar evlərə gələn şaxta baba və qar qızdan mütləq lisenziya tələb etməlidirlər"

Buna baxmayaraq, gözləri qapıda qalan uşaqlar canlı şaxta babanı öz gözləri ilə görməkdən, onunla söhbətləşməkdən, yanaşı durub şəkil çəkdirməkdən ötrü valideynlərindən daha bir sürpriz gözləyirlər. Həmin sürpriz də şaxta babaların evə dəvət olunmasıdır. Bu isə ailənin büdcəsinə bağlıdır. Şaxta baba ola da bilər, olmaya da. Əsas odur ki, Yeni ilin gəlişini elə uşaqlar qədər səbrsizliklə gözləyən böyüklər körpələri nə iləsə sevindirə bilsinlər.

Şəhərin istənilən ərazisində yolkanın ətrafında dayanan şaxta baba və qar qızla yanaşı, mənzillərə yollanan şaxta babalar da var. Məlumat üçün bildirək ki, Yeni ilin əsas personajları olan şaxta baba və qar qız olmaq istəyənlər Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edərək, 60 manat dəyərində rüsum ödədikdən sonra bu işi icra edə bilərlər.

Ancaq elə şaxta baba və qar qızlar var ki, onlar qeydiyyatdan keçmədən, sadəcə, şaxta baba geyimini geyib mənzillərə gedirlər. Təbii ki, həmin şaxta baba və qar qızların lisenziyası yoxdur. Lisenziyası olmayan Yeni il personajları barədə xoşagəlməz məlumatlar yayılır. Həmin personajlar mənzillərə yüksək qiymətə getməkdən əlavə, şaxta baba adından istifadə edib, oğurluq məqsədilə evə daxil olanlar da var. Belə bir fakt dəfələrlə qeydə alınıb.

"...niyyəti uşaqları sevindirmək yox, daxil olduğu mənzildən qiymətli nəsə oğurlamaqdır"

Hətta rəsmi qurumlar da lisenziyası olmayan şaxta baba və qar qızlarla bağlı vətəndaşları diqqətli olmağa çağırırlar.

Sosial sahə üzrə ekspert Aytəkin Kamranqızı bildirdi ki, evlərə gedən şaxta babalar və qar qızlar aidiyyəti qurumlardan lisenziya almalıdırlar: "Ancaq elə şaxta baba və qar qızlar var ki, onlar lisenziya almadan, sadəcə, həmin personajın geyimini satın almaqla bu işlə məşğul olurlar. Onlar Yeni il gecəsi qapı-qapı gəzib evdə olan uşağı sevindirmək istədiyini deyirlər. Ev yiyəsi də uşaqların könlü xoş olsun deyə tanımadıqları və rəsmi icazəsi olmayan şaxta babanı evinə dəvət edir. Təəssüf ki, bəzi hallarda Yeni il personajlarının niyyəti uşaqları sevindirmək yox, o mənzildən nəsə oğurlamaqdır. Hətta ötən illərdə mənzilə daxil olan şaxta babanın evdən oğurluq etdiyi faktı da aşkar olunub.

Bu kimi hallar dəfələrlə qeydə alınıb. Bu səbəbdən də aidiyyəti qurumlar şaxta baba geyimi ilə mənzillərə daxil olan şəxslərə nəzarət etməlidirlər.

Həmçinin, vətəndaşlar da bu məsələdə həssas olmalıdırlar. Şəhərimizin sakinləri belə məsələlərdə diqqətli olmalıdırlar. Vətəndaşlar evlərə gələn şaxta baba və qar qızdan mütləq lisenziya tələb etməlidirlər".

**Günel CƏLİLOVA**

"Xalq Bank"ın əsas binasının 16-cı mərtəbəsində yerləşən bədii qalereyada "Xalq Əmanəti" layihəsi çərçivəsində nəşr olunan "Tağı Tağıyev. Rəngkarlıq və qrafika" bədii albomunun təqdimatı və rəssamın əsərlərindən ibarət sərginin açılışı keçirilib. Layihənin sayca 19-cu nəşrinə rəssamın yaradıcılığının müxtəlif mərhələlərini ehtiva edən əsərləri daxil edilib.

# "Xalq Bank" görkəmli rəssam Tağı Tağıyevin bədii albomunun təqdimatını keçirib



Tədbirdə ölkəmizin sənət və elm adamları, bank sektorunun nümayəndələri, ictimai xadimlər, rəssamın ailə üzvləri iştirak ediblər.

Gecənin aparıcısı, Əməkdar artist Dilarə Səlim "Xalq Bank"ın illərdir həyata keçirdiyi nəcib missiyadan söz açıb. "Xalq Əmanəti" layihəsini xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması işində təqdirəlayiq iş olduğunu vurğulayan aparıcı sözü Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, 92 yaşını qeyd edən Xalq rəssamı Ömər Eldarova verib. Akademik albom üzərində çalışan insanlara minnətdarlığını bildirib və gördüklərindən böyük zövq aldığını dilə gətirib. Onun sözlərinə görə, T.Tağıyev dahi rəssam və böyük müəllimdir. Sərgilənən rəsmlər onun yaradıcılıq dühasının bir damlasıdır, buna baxmayaraq, burada olan hər bir əsər ustadın bütün varlığını açır, onun sonsuz istedadını nümayiş etdirir: "Onun əsərləri mənə illər əvvəl böyük təsir göstərirdi, indi də həmin hissləri yenidən yaşayıram. Sənət zamanla sınanır, zaman isə Tağı Tağıyevin xeyrinə işləyir. Mən bugünkü tədbirlə bağlı hamını təbrik edirəm"..

Albomun mətninin müəllifi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikova T.Tağıyevi milli rəngkarlığımızda böyük iz qoymuş sənətkar, yaradıcılığı böyük məktəb olan ustad adlandırıb.

Tağı Tağıyevin oğlu, rəssam Əkrəm Tağıyev ailəsi adından banka və layihənin yaradıcı kollektivinə minnətdarlığını bildirib. "Xalq Əmanəti" layihəsini Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında mühüm iş adlandırıb və atasının bədii albomunun nəşrinə görə sonsuz sevincini bölüşüb.

Məlumat üçün bildirək ki, Tağı Əzizağa oğlu Tağıyev 1917-ci il noyabrın 7-də Bakı şəhərində zərgər ailəsində anadan olub. O, Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirdikdən sonra, 1940-1941-ci illərdə Moskva Rəssamlıq İnstitutunda təhsilini davam etdirib.T.Tağıyev əsasən tematik tablolar, natürmort, portret, mənzərə və məişət səhnələrinin müəllifidir. Azərbaycanda realist boyakarlığın yaradıcılarından olan Tağıyev portret ustası kimi daha məşhurdur. Onun yaradıcılığında tarixi mövzular, tarixi şəxsiyyətlərin təsviri, zəhmətkeş insanların obrazları, əməyin tərənnümü, doğma təbiətin təsviri mühüm yer tutur. Sənətkarın "Koroğlu", "Poladəridən", "Qaynaqçı", "Göygöl", "Qarlı yollar", "Xalçasatan", "Uşaqlıq xatirələri", "Abşeron silsiləsi", "El gözəli", "Qarayanız qız" və bir çox rəsm əsərləri Praqa, Pekin, Dakar, Bağdad və s. ölkələrdə nümayiş etdirilmiş və böyük rəğbətlə qarşılanıb. Fırça ustasının yaratdığı "Qara Qarayev" və "Səttar Bəhlulzadə" tabloları dünyanın bütün sərgi salonlarında uğurla nümayiş olunub.

T.Tağıyev bir çox xarici ölkədə - Türkiyə, Yunanıstan, İtaliya, Fransa, İspaniyada səfərlərdə olub və o, ölkələrin adamlarının həyatına dair tablolar çəkib. Avropa və Afrika ölkələrində yaradıcılıq ezamiyyətində olan rəssam, dilindən, dinindən, irqindən asılı olmayaraq, insanları, onların ideyalarını bədii boyalarla təsvir edir. Həmin səfərdən sonra yaratdığı "Afrikalı qız", "Salam, yeni dünya" əsərləri bu gün də böyük maraqla baxılır.

T.Tağıyev klassik rəngkarlıq məktəbinin parlaq nümayəndəsi, realistik metodun təməlini qoyan rəssamlardan biridir. Onun yaradıcılığı və milli incəsənətin inkişafında xidmətləri yüksək qiymətləndirilib və o, Əməkdar incəsənət xadimi, Xalq rəssamı fəxri adlarına layiq görülüb.

Onu da qeyd edək ki, Tağıyevin əsərləri Şərq Xalqları İncəsənəti Muzeyi (Moskva), Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və digər muzeylərdə saxlanır.

"Xalq Əmanəti" layihəsi ASC "Xalq" Bankı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar üç dildə - Azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələrinə, uşaq evləri və kitabxanalara, müxtəlif fondlara, dövlət müəssisələrinə, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, realistik kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur. Ötən zaman ərzində Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, eləcə də Ələkbər Rzaquliyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinovun, şəhid-heykəltəraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, unudulmaz Mikayıl Müşfiqin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin, dünya şöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görüb.

Rəssamın əsərlərinin ekspozisiyası dekabrın 21-dən başlayaraq "Xalq Bank"ın əsas binasında (Ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti, 22L) fəaliyyət göstərəcək. Sərgini iş günləri saat 18:00-dan 21:00-dək, şənbə və bazar günləri isə saat 10:00-dan 16:00-dək seyr etmək mümkündür.

Giriş sərbəstdir.

**Günel CƏLİLOVA**

№ 230 (4128) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

www.baki-xeber.com

25 DEKABR 2019-cu il



## Zibilliyә atılan uşaq böyüyüb milyonçu oldu

**Milyonçu Freddi Fiqqersin hәyatı nağılı xatırladır. 1989-cu ildә ABŞ-ın Florida ştatında dünyaya göz açan körpәni anası zibilliyә atır.**

"Oxu.az" bildirir ki, o vaxt qadının ağlına da gәlmir ki, bu körpәni necә bir gәlәcәk gözlәyir. "World of Buzz" milyonçunun hәyatı haqqında mәlumat yayıb. Çarәsiz körpәni yoldan keçәnlәr görür vә polisә xәbәr edirlәr. Uşaq xәstәxanaya yerlәşdirilir, daha sonra isә bir ailәyә övladlığa verilir. Figgers ailәsi uşağa Freddi adını verir. Uşaq özünü dәrk edәndәn sonra onu övladlığa götürmüş valideynlәri әsl hәqiqәti açıqlayırlar. Freddi hәqiqәti bildiyi vaxtı belә xatırlayır: "Bir az böyüyәndәn sonra valideynlәrim mәnә hәr şeyi danışdılar. Düzünü deyim ki, mәn buna görә çox narahat olur vә utanırdım". Freddinin 9 yaşı olanda atası ona işlәnmiş kompüter alır. Mәqsәdi uşağın başını qatmaq vә narahat edәn problemlәrdәn uzaqlaşdırmaq olur. Lakin elә bu hәdiyyә ilә uşaq başa düşür ki, gәlәcәyi texnologiyalarla bağlı olacaq. 13 yaşında kompüter tәmirinә başlayan Freddi artıq 15 yaşında özünün kompüterlәrin tәmiri ilә mәşğul olan şirkәtini qurub. Çox keçmir ki, yeniyetmә GPS-treker ixtira edir. Ayaqqabıya yerlәşdirilәn bu qurğunu Freddi valideynlәrini izlәmәk üçün istifadә edir. Lakin bu cihaza böyük tәlәbat yaranır vә Freddi buna görә, 2,2 milyon dollar qazanır. Hazırda zibillikdәn tapılan körpә "Figgers Wireless" adlı şirkәtin sahibidir. Onun varidatı 62 milyon dollardan artıqdır.

### TӘBRİK!



"B-Z" mәtbәәsinin direktoru Etibar müәllimin doğum günüdür. Bu münasibәtlә Bayram müәllim başda olmaqla mәtbәәnin bütün kollektivi onu tәbrik edir, ona cansağlığı, ailә sәadәti, işlәrindә müvәffәqiyyәtlәr arzulayır.

**Doğum gününüz mübarәk!**

### Elan

Şәki şәhәr sakini Әzizov Yavәr Alxan oğlunun adına verilmiş hәrbi bilet itdiyi üçün etibarsız sayılır.

Şәki şәhәr sakini Mәmmәdrәhimov Nurullah İbrahimxәlil oğlunun adına verilmiş 6758/1158 seriya nömrәli qeydiyyat vәsiqәsi itdiyindәn etibarsız hesab edilir.

Daşınmaz Әmlakın Dövlәt Reyestri Xidmәti tәrәfindәn Rzayev Mübariz Ağadadaş oğlunun adına, Bakı şәhәri, Nәrimanov rayonu, Hәsәnoğlu küçәsi, ev 16A, mәnzil 24 ünvanı üzrә 56,0 kvadratmetr sahәsi olan mәnzilә verilmiş çıxarış vә texniki pasport itdiyi üçün etibarsız sayılır.

Tağızadә Lamiyә Rәhim qızına Qәrbi-Kaspi Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Әhmәdova (Nәsirli) Elnarә Cümşüdovnaya mәxsus, Yasamal rayonu, Talıblı küçәsi 4, giriş 16, mәnzil 1769 ünvanına "Qlobal-Azәri" MMC tәrәfindәn 06.02.2015-ci il tarixdә verilmiş müqavilә N1769 itdiyi üçün etibarsız sayılır.

Sәftәrova Mәlahәt Hәmid qızının adına, Abşeron rayonu, Mәmmәdli kәndindә yerlәşәn 0.02 ha torpaq sahәsinә verilmiş çıxarış (seriya RX 0952818) itdiyi üçün etibarsız sayılır.

## Ayda әn uzun müddәtli iş rekordu qırıldı

**Bәşәriyyәtin kosmos macәrasındakı ilk dayanacaq sayıla bilәcәk olan tәbii peykimiz Ay üzәrindәki araşdırmalar davam edir.**



Ay üzәrindә iş görәn ölkәlәrdәn biri olan Çin isә, Ayda әn uzun müddәt işlәyәn vasitә rekordunu qırmağı bacardı. "Deyerler.org" bildirir ki, planetimizin tәbii peyki olan Ay, insanlığın kosmosa açılmasındakı ilk dayanacaq sayıla bilәr. Bu baxımdan da olduqca әhәmiyyәt ifadә edәn Ayın digәr planetlәrә görә bizә daha yaxın olması da elm adamlarının peykimizin üzәrindәki araşdırmaların keçirmәsindә әhәmiyyәtli dәrәcәdә şirkәt edir. Aya insanlı vә insansız bir çox uçuş reallaşdırılmasına baxmayaraq, hәlә öyrәnәcәyimiz bir çox şey var. Bu sәbәblә müxtәlif kosmos agentliklәri, Ayı daha yaxşı vә daha әtraflı kәşf etmәk üçün kosmos vasitәlәri göndәrmәyә davam edir. Planetimizin peykinә kosmos vasitәsi göndәrәn ölkәlәrdәn biri dә Çindir. Ay üzәrindә araşdırmalar aparan Çin vә Çinin kosmos vasitәsi Yutu-2 dә Ayda әn uzun müddәt iş rekordunu qırmağı bacardı. Yutu-2 vasitәsindәn әvvәl bu rekordu әlindә tutan vasitә isә Lunoxod-1 adlı kosmos vasitәsi idi. 3 yanvar tarixindәn bu yana Ayda olan Yutu-2, 11 aydan çox peykimizin sәthindә işlәyir. Rekordun әvvәlki sahibi olan 10 noyabr 1970-ci ildә göndәrilәn vә 17 noyabr 1970-ci ildә Aya eniş edәn Lunoxod-1 isә 10,5 ay boyunca Ayın sәthindә işlәmişdi. Ay kosmik vasitәsi, Ayda bu ana qәdәr 345 metr yol qәt etmәyi bacardı. Ortalama insanın bir neçә dәqiqәdә ala bilәcәyi bu mәsafә olduqca qısa görünsә dә, günәş enerjisiylә işlәyәn bir maşın üçün bu mәsafәni qәt etmәk çox da asan deyil. Bundan әlavә, Aydakı gecә vә gündüz müddәtlәri dünyaya görә çox daha uzundur. Hәr bir dövr tәxminәn 14 gün davam edir. Yәni, vasitә iki hәftә boyunca yol ala bilәrkәn, ondan sonrakı iki hәftә әrzindә günәş işığı olmaması sәbәbiylә yuxu rejimindә qalır.





**Qoç** - Sizin üçün asan olmayacaq: müxtәlif suallara cavab axtarmalı, әtrafdakılara kömәk etmәli, sizin günahınız üzündәn yaranmayan problemlәri yoluna qoymalı olacaqsınız.



**Buğa** - Çox әlverişli gündür, siz olduqca bәxtli vә uğurlusunuz. Nә qәdәr çәtin vә dolaşıq olur-olsun, bütün işlәrin öhdәsindәn gәlәcәksiniz. Gün istәnilәn yaradıcılıq, elәcә dә, tәhsil üçün münasibdir.



**Әkizlәr** - Maraqlı tanışlıqlar ehtimalı var. İlk dәfә gördüyünüz adamda tez bir zamanda doğru tәәssürat yaratmağa nail olacaq, onun baxışlarını, nәyә can atdığını anlaya bilәcәksiniz. Bәzi Әkizlәr ciddi şәkildә vә uzun müddәtә vurulacaq, bәzilәri isә hәyatı bölüşmәk istәdiklәri adamla qarşılaşacaqlar.



**Xәrçәng** - Qәribә işdir: çaşqınlıq içәrisindәsiniz vә nә etmәk lazım olduğunu bilmirsiniz. Bu vәziyyәt sizin üçün diskomfort yaradır vә çәtin ki, uzun sürә. Ehtiyatlı hәrәkәt etmәyә çalışın, lüzumsuz risklәrdәn uzaq durun.



**Şir** - Lazımsız әlaqәlәri kәsmәyin, irәlilәmәyә mane olanlarla vidalaşmağın vaxtı çatıb. Bu gün belә qәrarları qәbul etmәk vә hәyata keçirmәk başqa günlәrlә müqayisәdә daha asandır.



**Qız** - Sevdiyiniz insan sizin bir çox şübhә vә hәyәcanlarınızı anlamır, sizi sakitlәşdirmәyә çalışır. Amma әbәs yerә. Özünüz vәziyyәtdәn baş çıxarmasanız, mәnәvi tarazlığa bel bağlamağa dәymәz.



**Tәrәzi** - Bu gün diqqәti şәxsi işlәrinizә yönәltmәk kifayәt qәdәr çәtin olacaq: sizi tez-tez yayındıracaq vә boş şeylәrә görә tәngә gәtirәcәklәr. Bir çox Tәrәzilәr çoxdandır әmәkdaşlıq etdiklәri insanlarla küsüşәcәklәr.



**Әqrәb** - Әlverişsiz maliyyә mәnzәrәsi ilә qarşılaşacaqsınız. Bu gün gözlәdiyinizdәn daha çox pul xәrclәmәli olacaqsınız. Sevdiyiniz insan sizdәn diqqәt vә dәstәk gözlәyir, amma ümid etdiyiniz anlayışı göstәrmir.



**Oxatan** - Sizi uğurun müşayiәt edәcәyini demәk olmaz. Amma ümumilikdә işlәriniz bir o qәdәr dә pis getmәyәcәk. Çәtin işlәrin öhdәsindәn gәlәcәk, faktları tutuşdura bilәcәk, başqalarının tәsadüf hesab etdiyi hadisәlәr arasında әlaqә tapacaqsınız.



**Oğlaq** - Sizi köhnә dostunuz vә ya sevdiyiniz adam dәstәklәyә bilәr. Amma yalnız o halda ki, sizi narahat edәnlәrlә bağlı hәqiqәti danışasınız. Uzlaşmamazlıqdan, qeyri-sәmimilikdәn uzaq olun.



**Dolça** - Maliyyә çәtinliklәri mümkündür. Xәrclәr gözlәnildiyindәn daha artıq ola bilәr. Planlaşdırılmamış bazarlıqlar, gözlәnilmәz xәrclәr tәlәb edәn tәkliflәrlә razılaşmaq mәslәhәt deyil.



**Balıqlar** - Tәnbәlliyinә qalib gәlmәyi bacaran vә hәrәkәtә keçәn adamlar böyük üstünlük әldә edәcәklәr: әksәr hallarda onların kiminlәsә mübarizә, rәqabәt aparmasına ehtiyac qalmayacaq.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Mobil telefonu gecә rejiminә qoymaq tәhlükәli imiş...

**Alimlәr smartfonların gecә rejiminә qoyulmasının tәhlükәlәri barәdә xәbәrdarlıq edir. Bu barәdә Mançester Universitetinin saytında mәlumat verilir.**



Tәdqiqatçıların fikrincә, telefondakı bu rejim bәdәnin sirkab ritmlәrinә mәnfi tәsir göstәrir. Qeyd olunur ki, telefon qaranlıq rejimdә olan zaman ("Dark mode") mobil cihazın fonunda sarı rәng üstünlük tәşkil edir, bu isә orqanizmin bioloji saatına ziyan vurur. Mobil telefon adi rejimdә olan zaman isә ekranda mavi rәngin spektrlәri üstünlük tәşkil edir. Mavi rәng orqanizm üçün tәbiidir vә ona ziyan vurmur.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.